QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 192 (5423) 21 **oktyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşü keçirilib

*Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib*

Səh 2




Milli Məclisin plenar iclasında bir sıra sənədlərə dəyişikliklər edilib



7

“Haffinqton Post”: Azərbaycanın coğrafi mövqeyi onu regionun sütununa çevirib



4

Baş nazirin müavini Tərtərdə məcburi köçkünlər üçün salınan məhəllədə tikinti işlərinin gedişi ilə tanış olub



5

“Yeni Azərbaycan” qəzeti elektron formada MEK-in rəqəmsal yaddaşına salınacaq



6

Azərbaycan nümayəndə heyəti Daşkənddə İslam abidələri ilə və məscidlərlə tanış olub



4

2018-ci ildə Azərbaycanda 1,5 faizlik iqtisadi artım olacaq



13

9

Azərbaycanın turizm imkanları dünya səviyyəsindədir



9

YUNICEF: Banqladeşə qaçan 320 min arakanlı uşağın həyatı təhlükə altındadır



16

Braziliya məhkəməsi Neymarı 1 milyon dollar cərimələdi



# İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşü keçirilib

*Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib*









Oktyabrın 20-də İstanbulda İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında IX Zirvə görüşü keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə xüsusi qonaq qismində Zirvə görüşündə iştirak edib. Əvvəlcə birgə foto çəkdirildi. Zirvə görüşü müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı. İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının - D-8-in baş katibi Seyid Ali-Mohammad Musəvi Zirvə görüşünü açıq elan edərək tədbirin əhəmiyyətindən danışdı.

D-8 təşkilatının hazırkı sədri, Pakistanın Baş naziri Şahid Xaqan Abbasi qurumun müasir dövrdə fəaliyyətinin daha da genişləndirilməsində üzv ölkələrin səylərinin gücləndirilməsinin vacibliyini vurğuladı. Qeyd etdi ki, Pakistan D-8 təşkilatına sədrliyi dövründə bu qurumun möhkəmlənməsinə və inkişafına çalışıb. Məhz bu dövrdə D-8 BMT-də müşahidəçi statusu əldə edərək beynəlxalq səviyyədə mövqeyini gücləndirib. Pakistanın Baş naziri dedi ki, qurumun üzvləri 20 il ərzində iqtisadiyyat, ticarət, nəqliyyat, turizm və digər sahələrdə əlaqələri inkişaf etdiriblər.

Baş nazir Şahid Xaqan Abbasi D-8 təşkilatına sədrliyin Pakistandan Türkiyəyə keçdiyini elan etdi.

Təşkilatın yeni sədri, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında üç qitədə yerləşən ölkələri əhatə edən D-8-in son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq, dünyada baş verən gərginliklər fonunda Zirvə görüşünün keçirilməsinin önəmini qeyd etdi. Son illər müsəlmanların yaşadıqları bölgələrdə baş verən münaqişələrin, terrorizmin, təbii fəlakətlərin ciddi fəsadlarla nəticələndiyini deyən Türkiyə Prezidenti təəssüflə bildirdi ki, qlobal ədalətsizlik azalmaq əvəzinə, daha da artır. Dünyada İslamla terrorizmin əlaqələndirilməsi cəhdlərinin, islamofobiyanın və ksenofobiyanın artdığını, miqrant böhranının dərinləşdiyini bildirən Türkiyə Prezidenti dedi ki, D-8 ölkələri dünyada çox az ölkənin sahib olduğu gənc və dinamik artan əhaliyə, zəngin təbii sərvətlərə, sürətli inkişafa malikdir. Prezident Rəcəb Tayyib Ərdoğan üzv ölkələrin bu potensialından tam səmərəli istifadə olunması nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin hazırkı 100 milyard dollardan qısa müddətdə 500 milyard dollara çatdırıla biləcəyini qeyd etdi.

***Ardı Səh. 3***

# İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşü keçirilib

*Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib*

Əvvəli-Səh-2

Türkiyə Prezidenti iqtisadiyyat, ticarət, nəqliyyat, müdafiə sənayesi, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayaraq D-8 üzvlərinin sayının artırılmasının, qarşılıqlı ticarətin milli valyutalarla aparılmasının təşkilatın daha da güclənməsinə imkan yarada biləcəyini bildirdi. Azərbaycan Prezidenti İlham Əliyev D-8 IX Zirvə görüşündə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

-Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan.

Hörmətli baş katib.

Xanımlar və cənablar.

İlk növbədə, əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşünə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm.







Azərbaycan D-8-in üzvü olmamasına baxmayaraq, Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanı bu tədbirə dəvət edib. Mən buna görə öz qardaşıma dərin təşəkkürümü bildirirəm.

2015-ci ilin noyabr ayında "Böyük iyirmilər"in Zirvə görüşü Türkiyənin Antalya şəhərində keçirilib. Türkiyə bu görüşə qrupa üzv olmayan yalnız bir ölkəni xüsusi qonaq kimi dəvət edə bilərdi və Prezident Rəcəb Tayyib Ərdoğan bu tədbirə Azərbaycanı dəvət etmişdir. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun bariz nümunəsidir.

Hörmətli görüş iştirakçıları, mən sizin diqqətinizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək istəyirəm. Ermənistan 25 ildən artıqdır ki, Azərbaycanın tarixi torpaqlarını - Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edib. Həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 1992-ci ildə Ermənistan Xocalı soyqırımını törədib. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilib, onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və azərbaycanlı mülki əhaliyə qarşı hərbi cinayətlərini davam etdirir.

Ötən ilin aprelində təmas xəttində Ermənistanın silahlı hücumu nəticəsində mülki şəxslər və hərbçilər həlak olub. Yüzlərlə yaşayış evi dağıdılıb. Azərbaycan Ermənistanın bu təxribatının qarşısını qətiyyətlə aldı, ordumuz torpaqlarımızın bir hissəsini erməni işğalçılarından azad etdi. Bundan sonra Ermənistan tərəfindən tamamilə dağıdılmış Cocuq Mərcanlı qəsəbəsi yenidən quruldu. 150 evdən ibarət bu qəsəbədə məktəb, tibb məntəqəsi və məscid tikildi. Bu məscid ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəridir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaq.

Hörmətli görüş iştirakçıları, Azərbaycan İslam həmrəyliyinə xüsusi əhəmiyyət verir və öz töhfəsini verir. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub. Eyni zamanda, bu il Azərbaycanda 54 müsəlman ölkəsindən gələn 3 minə yaxın idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunları keçirilib. Biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan Dağlıq Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıb. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz.

İki gün əvvəl Azərbaycan müstəqilliyinin bərpasının 26-cı ildönümünü qeyd edib. Qısa müddət ərzində ölkəmiz uğurlu inkişaf yolu keçmişdir. 2004-cü ildən başlayaraq iqtisadiyyatımız 3 dəfədən çox artmış, 2 milyona yaxın iş yeri açılmışdır. Yoxsulluq 5 faizə düşmüşdür. Savadlılıq 100 faizə yaxındır. Valyuta ehtiyatlarımız ölkənin ümumi daxili məhsuluna bərabərdir. Xarici dövlət borcu ümumi daxili məhsulun 20 faizindən azdır. Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətliliyi üzrə builki hesabatında Azərbaycan 35-ci yeri tutub. Azərbaycan beynəlxalq miqyaslı layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu gün biz tərəfdaşlarımızla birlikdə "Cənub Qaz Dəhlizi" layihəsini icra edirik. Bu, dünyanın ən böyük infrastruktur layihələrindən biridir. Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP qaz kəməri üzrə saziş 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında İstanbul şəhərində imzalanmışdır və bu kəmər gələn il istifadəyə veriləcəkdir.

Tezliklə rəsmi açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiya arasında ən qısa yol olacaqdır. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına böyük sərmayələr qoyur. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaqdır. Diqqətinizə görə minnətdaram.

X XX

Zirvə görüşündə D-8 Şurasının 16-cı, 17-ci və xüsusi sessiyalarının hesabatları dinlənildi, gündəlikdə duran məsələlər müzakirə olundu.

IX Zirvə görüşünə yekun vuran Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan D-8-in dünyada sülhün, sabitliyin və rifahın inkişafına bundan sonra da töhfə verəcəyinə əminliyini bildirdi. Türkiyə Prezidenti təşkilatın güclənməsi və böyüməsi üçün bir sıra islahatların aparılmasının vacibliyini diqqətə çatdırdı, qurumun inkişafında fəallığına və Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə Katibliyə, tədbirdə iştirak edən dövlət və hökumət başçılarına və nümayəndə heyətlərinin rəhbərlərinə minnətdarlığını çatdırdı. Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Azərbaycan Prezidenti İlham Əliyevin və digər ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə D-8 təşkilatı ilə İslam İnkişaf Bankı arasında Anlaşma Memorandumu imzalandı. D-8 formatına Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya daxildir. Təşkilatın üzvlərindən ikisi - Türkiyə və İndoneziya "Böyük iyirmilər"in (G-20) üzvüdür. D-8-in fəaliyyətinin əsas məqsədi üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, iqtisadi və sosial sahələrdə əlaqələri gücləndirməkdir.

Bu qurumun yaranması ideyası İslam Əməkdaşlıq Təşkilatının 1996-cı il oktyabrın 22-də İstanbulda keçirilmiş toplantısında irəli sürülüb. 1997-ci il iyunun 15-də İstanbulda keçirilən dövlət və hökumət başçılarının Zirvə görüşündə D-8 rəsmi olaraq təsis edilib. Doqquzuncu Zirvə görüşü ilə D-8 təşkilatının fəaliyyətinin 20 illik dövrü əhatə edən birinci mərhələsinə yekun vurulub, yeni mərhələ üçün hədəflər və fəaliyyətin əsas istiqamətləri müəyyənləşdirilib.

x x x

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri oktyabrın 20-də başa çatıb.

# Azərbaycan nümayəndə heyəti Daşkənddə İslam abidələri ilə və məscidlərlə tanış olub



**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti "İslam həmrəyliyi Özbəkistan-Azərbaycan dostluğu timsalında" mövzusunda beynəlxalq konfrans çərçivəsində Daşkənddəki İslam abidələri ilə və məscidlərlə tanış olub. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri "Barak xan" mədrəsəsində olub, dindarlarla görüşüblər.**

Allahşükür Paşazadə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından danışıb, din sahəsində əməkdaşlığın inkişaf etdiyini bildirib və Özbəkistanda təhsil aldığı illəri xatırlayıb.

Nümayəndə heyətinin üzvləri "Moy Mubarak" mədrəsəsində saxlanılan "Qurani-Kərim"in nadir nüsxəsi ilə tanış olublar. Bildirilib ki, VII əsrə aid "Qurani-Kərim"i Səmərqəndə XIV əsrdə Əmir Teymur gətirib.



Qonaqlar Dimam Buxari adına Daşkənd İslam İnstitutuna da baş çəkiblər. Təhsil ocağının müəllim və tələbə heyəti ilə keçirilən görüşdə şeyxülislam Allahşükür Paşazadə bildirib ki, o, əvvəlcə Buxaradakı "Mir Ərəb" mədrəsəsində, sonra isə bu institutda təhsil alıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı instituta "Azərbaycanın seçilmiş İslam abidələri" kitabını hədiyyə edib. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin Daşkənd İslam Universitetində olub.

Xatırladaq ki, nümayəndə heyətinə Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadə, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, aqrar siyasət komitəsinin sədri, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, deputat Hikmət Babaoğlu, deputat Cavanşir Paşazadə və başqaları daxildir.

*Qulu Kəngərli*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Daşkənd*




## "Haffinqton Post": Azərbaycanın coğrafi mövqeyi onu regionun sütununa çevirib

Azərbaycanın coğrafi mövqeyi onu regionun sütununa çevirib. AZƏRTAC xəbər verir ki, bu fikir "Haffinqton Post" qəzetində dərc olunan məqalədə əksini tapıb. Məqalədə bildirilir ki, siyasi sabitlik, sürətlə inkişaf edən iqtisadiyyat və digər amillər Azərbaycanı sərmayədarlar üçün cəlbedici ölkəyə çevirib. Məqalənin müəllifi, fransız jurnalist Sebastian Basua yazır ki, Odlar Yurdu Azərbaycanın coğrafi mövqeyi onu regionun sütununa çevirib. Dünyəvi müsəlman ölkəsi, bütün azlıqlara açıq, neft və qazla zəngin Azərbaycan yalnız bunlarla kifayətlənə bilməzdi. Regional gücə çevrilən Azərbaycanda iqtisadiyyat şaxələndirilir, bu istiqamətdə böyük uğurlar qazanılıb. Kim təsəvvür edə bilərdi ki, 30 ildən az müddətdə müstəqil Azərbaycan Qafqazda iqtisadi cəhətdən qüdrətli dövlətə çevriləcək?

Yazıda bildirilir ki, Azərbaycan beynəlxalq qurumların tərəfdaşına çevrilib. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərindən sonra ölkə indi də Avropayadək uzanacaq yeni qaz xəttinə böyük investisiya yatırır. Azərbaycan iqtisadiyyatını şaxələndirməyi, xarici investorları cəlb etməyi, yerli məhsulların ixracını stimullaşdırmağı qarşıya məqsəd qoyub. İstənilən ölkə üçün karbohidrogen ehtiyatlarından asılılığı 34 faizədək azaltmaq, ümumi daxili məhsulun xeyli hissəsini təmin edən möhkəm qeyri-neft iqtisadiyyatı qurmaq inanılmazdır. Azərbaycanda isə bu, reallıqdır. Azərbaycanın sərmayədarlar üçün cəlbedici ölkə olduğunu yazan Sebastian Basua bunu bu amillərlə əlaqələndirir: Siyasi sabitlik, sürətlə inkişaf edən iqtisadiyyat, xarici borcun azlığı, strateji geosiyasi vəziyyət, işsizliyin aşağı səviyyədə olması, işçi qüvvəsinin yaxşı ixtisas səviyyəsi, genişlənməkdə olan rahat nəqliyyat, turizm sənayesinə dəstək. Diqqətə çatdırılır ki, İpək yolu Azərbaycanın keçmişi deyil, gələcəyidir. Azərbaycan həm də orijinal turizm istiqamətlərinə çevrilir. Azərbaycan Qafqaza açılan qapı, Mərkəzi Asiyanın çıxış nöqtəsidir.

# Energetiklər peşə bayramlarını qeyd ediblər



Energetiklərin peşə bayramı qeyd olunub. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, 20 oktyabr - Energetiklər Günü münasibətilə nazirlikdə tədbir keçirilib. Energetika naziri Pərviz Şahbazov bu əlamətdar gün münasibətilə Azərbaycanın bütün energetiklərini təbrik edərək, bu günün özünəməxsus tarixi əhəmiyyətindən danışıb.

Nazir ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə yaradılmış "Azərbaycan" İstilik Elektrik Stansiyasının birinci enerji blokunun istifadəyə verildiyi tarixin ölkə başçısının müvafiq sərəncamı ilə 2004-cü ildə energetiklərin peşə bayramı günü kimi təsis edilməsini dövlətin energetika sektorunda çalışan insanların əməyinə qiyməti kimi dəyərləndirib. Energetika sektorunun iqtisadiyyatın inkişafında həlledici rol oynadığını deyən nazir bildirib ki, elektroenergetika sektorunun modernləşməsi və dünyada cərəyan edən qlobal dəyişikliklərə, yeni çağırışlara uyğun inkişaf etdirilməsi ölkə energetikləri qarşısında duran başlıca vəzifələrdir.



Azərbaycan energetiklərindən bir qrupunun peşə bayramı ərəfəsində Prezident İlham Əliyevin Sərəncamı ilə yüksək dövlət mükafatlarına layiq görüldüyünü xatırladan P.Şahbazov energetiklərin əməyini həmişə yüksək qiymətləndirən, onların fəaliyyətini, elektroenergetika sektorunun inkişafını daim diqqət mərkəzində saxlayan ölkə başçısına nazirliyin kollektivi adından minnətdarlığını bildirib.

## Səkkiz ayda Azərbaycan ilə Körfəz ərəb dövlətləri arasında ticarət dövriyyəsi 40 milyon dollar olub



Azərbaycanda Körfəz Ərəb Dövlətləri Əməkdaşlıq Şurasına üzv ölkələrinin 280 şirkəti fəaliyyət göstərir. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev oktyabrın 20-də Bakıda keçirilən Azərbaycan-Körfəz Ərəb Dövlətləri Əməkdaşlıq Şurasına üzv ölkələrinin biznes-forumunda deyib.

Nazir qeyd edib ki, bu ilin 8 ayında ölkələrimiz arasında ticarət dövriyyəsi 40 milyon dollardan çox təşkil edib. Şuraya üzv ölkələr Azərbaycan iqtisadiyyatına 1,3 milyard dollar, Azərbaycan tərəfindən bu ölkələrə isə 300 milyon dollar investisiya yatırılıb.

# Baş nazirin müavini Tərtərdə məcburi köçkünlər üçün salınan məhəllədə tikinti işlərinin gedişi ilə tanış olub

***Oktyabrın 20-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Tərtər rayonunda məcburi köçkünlər üçün inşa edilən yaşayış məhəlləsində aparılan son tamamlama işləri ilə tanış olub.***

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Tərtər, Ağdam, Laçın və Kəlbəcər Rayon İcra hakimiyyətlərinin başçıları və yaşayış məhəlləsinin tikintisində çalışan şirkətlərin rəhbərləri ilə birlikdə tam orta məktəbə, musiqi məktəbinə və uşaq bağçasına baxış keçirib. Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilən “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na 2011-ci il 21 fevral tarixli Sərəncamla edilmiş “Əlavələr”in 1.7-ci bəndinin icrası ilə əlaqədar olaraq 1176 məcburi köçkün ailəsinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə bütün zəruri sosial-texniki infrastruktur obyektləri ilə birlikdə salınan yaşayış məhəlləsinin tikintisində son tamamlama işlər görülür. Layihəyə əsasən yaşayış məhəlləsində hər biri 4 mərtəbəli olmaqla, 34 yaşayış binası, 1200 şagird yerlik məktəb, 280 yerlik uşaq bağçası, musiqi məktəbi, həkim məntəqəsi, inzibati bina, klub icma mərkəzi, Avtomat Telefon Stansiyası inşa edilib. Binalardakı mənzillərin 120-si bir, 504-ü iki, 472-si üç, 80-ni dördotaqlıdır.

Baş nazirin müavini Əli Həsənov məhəllədə aparılan son tamamlama işlərinin gedişi ilə yaxından tanış olduqdan sonra tikinti şirkətlərinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirib. Əli Həsənov bildirib ki, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın daim diqqət mərkəzindədir. Ölkəmizdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı addımlar atılır. Tərtər rayonu ərazisində inşa edilən yaşayış kompleksi də məhz bu diqqət və qayğının bariz göstəricisidir.

Baş nazirin müavini yaşayış məhəlləsində işlərin keyfiyyətlə başa çatdırılması ilə bağlı konkret tapşırıqlar verib. Qeyd edib ki, yaşayış kompleksi bütün infrastruktur obyektləri ilə birlikdə yüksək səviyyədə təhvil verilməlidir.

Tikinti şirkətlərinin nümayəndələri inşaat işlərinin gedişində heç bir problemin yaranmadığını diqqətə çatdırıblar.

Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov sonra Tərtər rayonunun Şıxarx qəsəbəsinə gedərək, “Marağa-150” abidəsi ətrafında aparılan tikinti-abadlıq işləri ilə maraqlanıb. Bu abidə Rusiya ilə İran arasında 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsindən sonra ermənilərin İran Marağasından Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə ermənilərin özləri tərəfindən 1978-ci ildə inşa edilib. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları başlayanda “Marağa-150” abidəsi ermənilər tərəfindən qəsdən dağıdılıb.









Bildirilib ki, artıq abidənin ətrafı təmir edilib, yerə tamet döşənib, əraziyə hasar çəkilib, işıqlandırma sistemi quraşdırılıb. Abidənin ətrafında quraşdırılmış stendlərdə ermənilərin buraya köçürülmələrini sübut edən Azərbaycan, rus və ingilis dillərində yazılmış arxiv sənədləri və fotoşəkillər öz əksini tapıb. Erməni məkrini və yalanını ifşa etmək üçün tutarlı vasitə olan abidə mühüm siyasi əhəmiyyətə malikdir. Abidə ölkəmizə səfər edən insanlara, xarici mətbuat nümayəndələrinə göstəriləcək.

Qeyd edək ki, Ağdam və Tərtər rayonlarında təmas xəttinə yaxın yerləşən yaşayış məntəqələrində 2016-cı ilin aprel ayında erməni silahlı qüvvələrinin atəşi nəticəsində ziyan çəkmiş məcburi köçkünlərin məskunlaşdığı 228 yaşayış evinin bərpası və şəxsi əmlaklarına dəymiş ziyana görə Nazirlər Kabinetinin 2016-cı il 3 may tarixli sərəncamı ilə müvafiq vəsait ayrılıb. Ayrılmış vəsait müqabilində Tərtər rayonu üzrə 105 ailə, Ağdam rayonu üzrə isə 15 ailə olmaqla, cəmi 120 ailəyə maddi yardım ödənilib. 182 evdə aparılan təmir-bərpa işləri 2016-cı ilin avqust ayında başa çatdırılıb. Həmin evlərdən 20-si Tərtər rayonu, 162-si isə Ağdam rayonu ərazisində yerləşir.

Erməni silahlı birləşmələrinin atəşi nəticəsində Tərtər rayonunun Şıxarx, Çaylı, Həsənqaya, Buruc və Əskipara kəndləri ərazisində məcburi köçkün ailələrinin müvəqqəti məskunlaşdığı 78 ədəd dağılmış evin yenidən tikilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 7 noyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsinin ehtiyat fondundan vəsait ayrılıb. Ərazidə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən bərpa işləri aparılıb. Ayrılmış vəsait müqabilində 78 evin tikintisi bu ilin may ayında başa çatdırılaraq məcburi köçkün ailələrinin istifadəsinə verilib.

# Səhiyyə naziri Göyçayda vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər. Növbəti belə qəbul oktyabrın 20-da Göyçay Mərkəzi Rayon Xəstəxanasında keçirilib. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Göyçay, Ucar, Ağdaş və Zərdab rayonlarından olan vətəndaşların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

# Azad Rəhimov Masallıda vətəndaşları qəbul edib



Gənclər və İdman naziri Azad Rəhimov dünən Masallı Gənclər Mərkəzində Masallı, Astara, Cəlilabad, Lerik, Yardımlı rayonları və Lənkəran şəhərindən olan vətəndaşları qəbul edib. Ümumilikdə qəbulda 20-dən artıq vətəndaş iştirak edib. Gənclər və idman Nazirliyinin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədovanın SİA-ya verdiyi məlumata görə, idman sahəsində edilən müraciətlər sırasında fəxri adların verilməsi, idman qurğularının idman avadanlıqları ilə təchiz olunması, olimpiya idman komplekslərinin, idman qurğularının tikilməsi və təmiri, idmançıların beynəlxalq yarışlarda iştirakı və məşqçi dərəcələrinin verilməsi və s olub.

Qeyri hökumət gənclər təşkilatlarının yaradılması, layihələrin dəstəklənməsi, beynəlxalq təlimlərdə iştirak, yay istirahət düşərgələrinin təşkili, Gənclər Mərkəzlərinin tikintisi və təmiri gənclər sahəsində olunan əsas müraciətlər istiqamətində olub. Digər müraciətlər ipoteka kreditlərinin verilməsi, sahibkarkarlara güzəştli kreditlərin verilməsi, iş ilə təminat və şəxsi məsələlərlə bağlı olub. Bəzi məsələlər yerindəcə həllini tapmış, araşdırılması tələb edən məsələlər isə aidiyyatı qurumlara göndərilməsi üçün nəzarətə götürülmüşdür

# Xam neft Azərbaycanın ümumi ixracının 72, təbii qaz isə 11 faizini təşkil edib

Cari ilin yanvar-sentyabr aylarında xam neft ixracı Azərbaycanın ümumi ixracının 72,24 faizini, təbii qaz 11,40 faizini, neft məhsulları isə (2710 mal kodu üzrə) 2,93 faizini təşkil edib. Bu barədə Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a verilən məlumatda deyilir.

# "Yeni Azərbaycan" qəzeti elektron formada MEK-in rəqəmsal yaddaşına salınacaq

*Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) ölkənin aparıcı media orqanları ilə əməkdaşlığı davam etdirir. Hazırda MEK-də mətbuat orqanlarının nüsxələrinin PDF formatında kitabxananın elektron yaddaşına köçürülməsi və saxlanılması prosesi həyata keçirilir.*



Kitabxanadan AZƏRTAC-a bildiriblər ki, MEK ilk belə addımı "Yeni Azərbaycan" qəzeti ilə bağlı atıb. Qəzetin 2014-cü ilin yanvarından 2017-ci ilin mayınadək çap olunan 792 sayda PDF variantında işlənilən nüsxəsinin MEK-in Milli Rəqəmsal Yaddaş (MRY) bazasına daxil edilməsi nəzərdə tutulur.

MRY-nin məqsədi qədim mədəniyyətimizin, tariximizin bəşəriyyətin inkişafına verdiyi töhfələr barədə Azərbaycanda və ölkəmizin hüdudlarından kənardakı bütün məlumatları toplamaq, sistemləşdirmək, rəqəmsallaşdırmaq, elektron kataloqa salmaq, arxivləşdirmək, yerli və dünya oxucusunun, tədqiqatçıların istifadəsinə verməkdir. Bu baza Azərbaycana aid informasiyanı idarə olunan və əlaqələndirilə bilən strateji resursa çevirmək, informasiya müharibəsində üstünlük qazandıracaq təsirli silah formalaşdırmaq məqsədilə reallaşdırılır. Layihə davam edir və gələcəkdə digər mətbu orqanları ilə də bu istiqamətdə işlərin görülməsi planlaşdırılır.

# BSU-da Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyinə həsr olunmuş intellektual oyun keçirilib



***Dünən Bakı Slavyan Universitetində Yeni Azərbaycan Partiyasının 25 illiyinə həsr olunmuş intellektual oyun keçirilib. Oyundan əvvəl tələbələr qarşısında çıxış edən BSU-nun rektoru, professor Nurlana Əliyeva Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi və dövlət müstəqilliyimizin bərpasının 26-cı ildönümü münasibətilə ölkəmizin hər yerində müxtəlif tədbirlərin keçirildiyini bildirib.***

BSU-da keçirilən intellektual oyunun da həmin tədbirlərin sırasında olduğunu qeyd edən N.Əliyeva gənclərin elmə və intellektual yarışlara maraq göstərmələrini yüksək qiymətləndirib. Vurğulanıb ki, tələbələrin intellektual fəaliyyətə daha geniş miqyasda cəlb edilmələrinin təmin olunmasında bu cür tədbirlərin təşkili vacibdir. BSU-nun tələbələri ilə fəxr etdiyini deyən N.Əliyeva onlara sağlam rəqabət və uğurlar arzulayıb. Diqqətə çatdırılıb ki, xoşbəxt gələcəyi yalnız ağıllı, güclü intellekt sahibi olan, vətənpərvər gənclərin sayəsində əldə etmək mümkündür. Sonra BSU İntellektual Klubunun filologiya və xarici dil müəllimliyi fakültəsi üzrə sədri Şəmsi Məmmədov oyunun qaydaları barədə iştirakçılara məlumat verib.

Oyun universitetin 5 fakültəsi və hər fakültənin müxtəlif komandaları arasında keçirilib. Universitetin filologiya və xarici dil müəllimliyi fakültəsini "Pole Çudes" və "Skorpion", Azərbaycan filologiyası və jurnalistika fakültəsini "Legion", "Gənc kimsə" və "İrfan", pedaqoji fakültəni "Venera", beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsini "DiFai" və "Coker", tərcümə fakültəsini "Brain Massons" komandaları təmsil edib. Yarışda "DiFai" komandası birinci yeri, "Coker" komandası ikinci yeri, "Pole Çudes" komandası isə üçüncü yeri tutub.

Tələbələrə diplom və medallar təqdim olunub. "DiFai" komandasına isə qalibiyyət kuboku təqdim edilib. İntellektual oyunun lideri BSU-nun beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsi olub.

**ZÜMRÜD**

# Milli Məclisin plenar iclasında bir sıra sənədlərə dəyişikliklər edilib

***Oktyabrın 20-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin sədri Oqtay Əsədov gündəliyi təqdim edib. Gündəliyin təsdiqindən sonra Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun payız sessiyasının yekunları barədə məlumat verib. Qeyd olunub ki, qurumun bu sessiyası əvvəlkilərdən fərqli olaraq Azərbaycan nümayəndə heyəti üçün o qədər də asan keçməyib.***

Qurumda Azərbaycandan başqa monitorinq altında olan heç bir ölkəyə belə yanaşma nümayiş etdirilməyib. Ölkəmizlə bağlı məlum qərəzli qətnamələrin qəbul olunması prosesində Azərbaycana mənfi münasibət bəsləyən deputatlar əsassız iddialar səsləndiriblər. Çıxış edən şəxslərin qəbul edilmiş sənədlərə təklif etdiyi əlavələr, ümumiyyətlə, həqiqəti əks etdirməyib. Avropa Şurasının baş katibi ən yüksək dəyərləri - insan haqlarını və demokratiyanı alətə çevirərək Azərbaycana təzyiq göstərir. Bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünün pozulmuş hüquqlarına etinasızlıq ölkəmizə qarşı ən böyük ədalətsizlikdir. Biz AŞPA ilə münasibətlərimizi çox ciddi təhlil etməli, qəti mövqeyimizi ortaya qoymalıyıq.

Milli Məclisin deputatları AŞPA-nın payız sessiyasında ölkəmizin hədəf seçilməsindən narazılıqlarını ifadə edib, Azərbaycana qarşı bu münasibətin haqsız olduğunu bildiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb.

Əvvəlcə hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Konstitusiya Qanununun layihəsi barədə məlumat verib. Qeyd olunub ki, sənəd Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilib. Muxtar respublika Konstitusiyasının altı maddəsi üzrə edilən dəyişikliklər ötən ilin sentyabrında referendum yolu ilə Azərbaycan Konstitusiyasına edilən dəyişikliklərdən irəli gəlir. Belə ki, 8-ci maddənin 3-cü hissəsinə əsasən müəyyən kateqoriyadan olan şəxslərin passiv seçki hüququ qanunla məhdudlaşdırıla bilər. Muxtar Respublikanın Ali Məclisinə deputatlığa namizədlərə tələblərlə bağlı "yaşı 25-dən aşağı olmayan" sözləri "seçkilərdə iştirak etmək hüququna malik olan" sözləri ilə əvəzlənir. Digər bir maddədə Ali Məclisə deputatlıqdan məhrumetmə ilə bağlı beş hal nəzərdə tutulurdusa, buna əsas yaradan daha iki hal maddəyə əlavə olunur. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə aid tələblər" maddəsindən "yaşı otuzdan aşağı olmayan" sözləri çıxarılır. Naxçıvan Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə aid tələblər maddəsi də yeni redaksiyada verilir və orada da yaş tələbi aradan qaldırılır. Yeni redaksiyada qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının Baş naziri, Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanı rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan vətəndaşı təyin edilir. Sənəd səsə qoyularaq qəbul olunub.



"Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə Çin Xalq Respublikasının Keyfiyyətə Nəzarət, Yoxlama və Karantin üzrə Baş Administrasiyası arasında texniki tənzimləmə, metrologiya, standartlaşdırma və uyğunluğun qiymətləndirilməsi sahələrində əməkdaşlığa dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" qanun layihəsi barədə iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verib. 2017-ci il mayın 15-də Pekində imzalanmış sənədin iqtisadi əhəmiyyəti vurğulanıb. Bildirilib ki, Azərbaycanın mühüm ticarət müttəfiqi olan Çinlə ölkəmiz arasında imzalanan bu sənəd insan sağlamlığının qorunmasına, məhsulların və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə böyük töhfə olacaq. Sənəd səsə qoyularaq qəbul edilib.

Gündəlikdəki növbəti üç məsələ -"Banklar haqqında", "Poçt haqqında" və "Mərkəzi Bank haqqında" qanunlara təklif olunan dəyişiklikləri Ziyad Səmədzadə geniş şərh edib. Bildirilib ki, hər üç qanuna təklif olunan dəyişikliklər "Valyuta tənzimi haqqında" Qanuna dəyişiklik edilməsi barədə 2017-ci il 25 aprel tarixli Qanunun tətbiqi ilə əlaqədar uyğunlaşdırma xarakteri daşıyır. Sənədin qəbulu ilə əlaqədar son illər ölkəmizdə fəaliyyət göstərən bankların qarşılaşdıqları problemlərin aradan qaldırılması, bankların sağlamlaşdırılması üçün qanunvericiliyin dəyişdirilməsi zərurəti meydana gəlib. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Əli Hüseynli "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanuna təklif edilən dəyişikliyin də "Valyuta tənzimi haqqında" Qanuna dəyişiklik edilməsi barədə Qanunun tətbiqi ilə əlaqədar olduğunu diqqətə çatdırıb. Bu sənəd də razılıqla qarşılanıb. Sonra Ziyad Səmədzadə "Poçt haqqında" Qanunda dəyişikliklər edilməsi barədə sənədi təqdim edib. Qeyd olunub ki, Qanuna təklif edilən dəyişiklik xüsusi poçt rabitəsi xidmətində "Dövlət sirri haqqında" Qanunla qorunan məlumatların, qiymətli metalların, qiymətli daşların, zərgərlik məmulatlarının, qiymətli kağızların və xüsusi yüklərin göndərildiyi poçt göndərişlərinin qəbulunu, çeşidlənməsini, saxlanmasını, daşınmasını və ünvan sahiblərinə çatdırılmasını həyata keçirir. Sənəd səsə qoyularaq qəbul edilib. Ziyad Səmədzadə Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsini şərh edərkən bildirib ki, sənəd "Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında" 1976-cı il tarixli Beynəlxalq Konvensiyanın tələblərinə uyğunlaşdırmaq məqsədi ilə hazırlanıb. Dənizdə baş vermiş qəza hadisələrinin Beynəlxalq Dəniz Təşkilatı tərəfindən araşdırılması nəticəsində müəyyən olunub ki, qəzanın nəticələrinin aradan qaldırılması üçün hesablanmış məbləğ Beynəlxalq Konvensiyanın müəyyən etdiyi məbləğdən dəfələrlə artıqdır. Azərbaycanın Konvensiyaya qoşulması müəyyən edilmiş tələblərin təmin edilməsi məqsədilə Ticarət Gəmiçiliyi Məcəlləsində də müvafiq dəyişikliklər etmək zərurəti yaradıb. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra Əli Hüseynli "Mülki aviasiya sahəsində xidmətlərə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi təqdim edib. Bildirilib ki, bu medalla vəzifələrini nümunəvi icra edən, istehsal fəaliyyətində yüksək nəticələr göstərən mülki aviasiya işçiləri, Azərbaycanda bu sahənin inkişafı və təkmilləşdirilməsində xüsusi rolu olan insanlar təltif olunacaqlar. Sənəd səsvermə yolu ilə təsdiqlənib.

Komitə sədri Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında sənədlə əlaqədar dəyişiklikləri diqqətə çatdırıb. Qeyd olunub ki, Məcəllənin 53.1-ci maddəsinə edilən dəyişiklik əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan ərazisində daimi yaşamaq icazəsinin alınması ilə bağlı tələb olunan sənədlərin siyahısının təqdim edilməsindən ibarətdir. Təklif olunan dəyişiklik bu sahədə mövcud bürokratik əngəllərin qarşısını almaq baxımından mütərəqqi bir addımdır. Sənəd təsdiq edilib.

Sonra Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Qeyd olunub ki, dəyişikliklər "Reklam haqqında" Qanunun müvafiq maddələrinin tələblərinin pozulmasına görə inzibati məsuliyyəti yaratmaq məqsədilə təklif edilir. Nəzərdə tutulan dəyişikliklərin mahiyyəti açıqlandıqdan sonra sənəd səsə qoyularaq təsdiqlənib.

İclasda "Məhkəmə-Hüquq Şurası haqqında" Qanuna təklif olunan dəyişikliklər də diqqətə çatdırılıb. Bildirilib ki, layihə "Dövlət qulluğu haqqında" Qanunun tələblərinə uyğunlaşdırma məqsədilə hazırlanıb. Sənəd müzakirə edilərək təsdiqlənib.

"Məhkəmələr və hakimlər haqqında" Qanuna dəyişikliklər edilməsi barədə sənədin təqdimatında bildirilib ki, layihədə bir sıra dəyişikliklər edilir. Bu dəyişikliklər ölkə Prezidentinin "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 13 iyul tarixli Sərəncamına əsasən hazırlanıb. Sənəd səsvermə yolu ilə təsdiqlənib.

Qeyd edilib ki, İnzibati Xətalar Məcəlləsindəki dəyişikliklər "Yol hərəkəti haqqında" Qanuna dəyişikliklər edilməsi barədə 2016-cı il oktyabrın 14-də qəbul olunmuş Qanunun tətbiqi ilə əlaqədar təklif edilir. Həmin Qanuna əsasən yol hərəkəti təhlükəsizliyinin təmin olunması məqsədilə iri qabaritli və ağır çəkili nəqliyyat vasitələri icazədən artıq yüklə hərəkətdə olduğu zaman müəyyən hallarda ümumi istifadədə olan avtomobil yollarında iştirakdan kənarlaşdırıla bilər. Sənəd təsdiqlənib.

Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov "Mədəniyyət haqqında" Qanuna dəyişiklikləri şərh edərkən bildirib ki, 1960-cı ildən sonra istehsal olunmuş mədəniyyət nümunələrinin ölkəmizdən ixracını sadələşdirmək məqsədilə sənədə bir neçə yeni maddə əlavə olunub, bəzi maddələrdə isə dəqiqləşdirmələr aparılıb. Bu dəyişiklikdən sonra mədəniyyət məhsullarının ölkədən ixracı zamanı süni maneələr aradan qaldırılacaq. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonda Əli Hüseynli Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində əlavə və dəyişikliklər edilməsi barədə sənədləri təqdim edib. O bildirib ki, bu ilin fevral ayında Prezident İlham Əliyev tərəfindən cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı müvafiq Sərəncam imzalanıb. Bu Sərəncamın icrası istiqamətlərindən biri də bugünkü sənədlərdir. Əli Hüseynli qeyd edib ki, Cinayət Məcəlləsinə yeddi istiqamət üzrə dəyişikliklər təklif olunub, 300-ə yaxın dəyişiklik nəzərdə tutulub. Cinayət tərkiblərinin Məcəllədən çıxarılması yolu ilə 15-ə yaxın cinayət əməli dekriminallaşdırılıb. Bunlar əsasən mülkiyyət əleyhinə cinayətlər və ehtiyatsızlıqla törədilən cinayətlərdir. Məcəlləyə "azadlığın məhdudlaşdırılması" cəzası da əlavə edilir. Azadlığın məhdudlaşdırılması və digər bu kimi cəzalar bütövlükdə 152 maddənin sanksiyasına daxil edilib. Dəyişiklikdə 18 cinayət az ağır cinayətlər kateqoriyasından "böyük cinayət törətməyən" kateqoriyasına, 4 cinayət əməli ağır kateqoriyadan az ağır kateqoriyaya keçirilib. Deputatlar məsələlərlə bağlı fikirlərini bildirdikdən sonra sənədlər ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib. Bununla da Milli Məclis öz işini başa çatdırıb.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

21 oktyabr 2017-ci il

# Yeni geosiyasi konfiqurasiya: Ərdoğanın Tehran səfəri strateji kontekstdə

*Türkiyə Prezidentinin İrana baş çəkməsinə ekspertlər ciddi maraq göstəriblər. Onlar bu səfərin arxasında qlobal geosiyasi proseslərlə bağlı mühüm məqamların dayandığını düşünürlər. Eyni zamanda, Yaxın Şərqdə son zamanlar müşahidə edilən bir sıra geosiyasi dəyişikliklər prizmasından iki böyük dövlətin əlaqələrinin yeni məzmun kəsb edə biləcəyi proqnozlaşdırılır. Buraya, bir qayda olaraq, Rusiya da aid edilir. Kremlin Ankara-Tehran əməkdaşlığının geosiyasi-hərbi aspektinin əsas təkanvericisi olduğu bildirilir. Bunların fonunda Yaxın Şərq-Cənubi Qafqaz-Mərkəzi Asiya oxunda meydana çıxa biləcək geosiyasi özəlliklərin analizi aktuallıq kəsb edir. Bundan başqa, tarixi Türkiyə-İran müttəfiqliyi baş tuta bilərmi?*

### Yaxın Şərqin problemləri: əzəli rəqiblər birləşirlər?

Ekspertlər Türkiyə-İran münasibətlərinin Yaxın Şərqin geosiyasi gələcəyi baxımından böyük önəm kəsb etdiyini vurğulayırlar. Onların fikirlərinə görə, regionun iki böyük dövləti əməkdaşlıq edə bilsələr, bir çox problemlərin həll edilmə şansı artar. Bu məqamın işığında Rəcəb Tayyib Ərdoğanın İrana səfərinə mütəxəssislər böyük maraq göstərdilər. Onlar Ankara ilə Tehran arasında əhəmiyyətli razılıqların əldə edilə biləcəyinə inanırdılar.

Bu gözləntilər özünü doğrultdu. İki dövlətin başçıları region üçün mühüm və aktual sayılan bütün məsələlər üzrə ortaq mövqeyə gələ bildilər. Onlar dörd sənədə imza atdılar. Bu görüş Türkiyə-İran Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası çərçivəsində keçirildiyindən aparılan müzakirələr geniş məsələləri əhatə edib. İran ilə Türkiyə arasında ticarət dövriyyəsinin həcmini 30 milyard ABŞ dollarına qədər yüksəltmək barədə razılığa gəlinib. Bunun üçün geniş imkanlar var. Həmin bağlılıqda tərəflər yerli valyuta ilə ticarət sisteminə keçid barədə də ümumi qərara gəliblər. Bununla onlar ABŞ dollarından asılılığı xeyli azalda biləcəklərinə ümid edirlər.

Tərəflər gömrük, turizm, mədəni-elmi mübadilələr kimi sahələrdə də əməkdaşlığı genişləndirməyə hazır olduqlarını bildiriblər. Bunlarla yanaşı, onlar indi hər iki tərəf üçün daha önəmli olan təhlükəsizlik və müdafiə sənayesi sferalarında əlaqələrin inkişafı üzərində də dayanıblar. Bu məsələlər regiondakı geosiyasi vəziyyət kontekstində yeni səviyyədə aktuallıq kəsb edib.

Türkiyə Prezidenti jurnalistlərlə söhbətində ifadə edib ki, iki ölkənin hərbi sahədə bir-birinə təklif edə biləcəyi texnikaları vardır. Bu məsələləri nazirlər geniş müzakirə ediblər. O cümlədən Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akar həmin məsələ ilə əlaqəli iranlı həmkarı ilə müzakirələr aparıb. Bunlarla yanaşı, Ankara və Tehran kəşfiyyat sahəsində də intensiv əməkdaşlıq edirlər. Milli Kəşfiyyat Təşkilatının (MİT) rəhbəri də bu barədə öz iranlı həmkarı ilə görüşlər keçirib.




Bunlar onu göstərir ki, Türkiyə və İran qarşılıqlı münasibətlərdə hərbi və təhlükəsizlik məsələlərinə xüsusi əhəmiyyət verirlər. Ekspertlər bunun səbəbinin əslində aydın olduğunu qeyd edirlər. Məsələ bütövlükdə Yaxın Şərqdə geosiyasi vəziyyətin yeni dinamika alması ilə bağlıdır. Mənzərə daha çox Şimali İraqda keçirilən müstəqillik referendumu və Suriyada meydana gələn hərbi-siyasi durumla sıx bağlıdır.

Suriyada təhlükəsizlik zonalarının yaradılması indi çox aktualdır. Bu istiqamətdə Rusiya, Türkiyə və İran birgə fəaliyyət göstərirlər. Rəcəb Tayyib Ərdoğan İrandan qayıdarkən jurnalistlərə bildirib ki, Suriyanın İdlib bölgəsində türk əsgərləri təhlükəsizliyi təmin edəcəklər. Kənardan isə Rusiya əsgərləri olacaq. Deməli, İdlibin dini və etnik tərkibi nəzərə alınaraq, əyalətin təhlükəsizliyi faktiki olaraq Türkiyəyə etibar edilir. Bu, çox prinsipial məsələdir. Çünki məsələ həm də Türkiyənin təhlükəsizliyinin təmin edilməsi ilə sıx bağlıdır. İdlib və Afrinə nəzarət regionda separatçılıq zolağının yaradılmasının qarşısını ala bilər. Belə çıxır ki, İran da Türkiyənin İdlibə nəzarət etməsinə qarşı çıxmır.

Tehranda müzakirə edilən digər vacib məsələ İraqdakı kürd muxtariyyətinin keçirdiyi qeyri-qanuni müstəqillik referendumu olub. Tərəflər qətiyyətlə bu səsvermənin nəticələrini tanımayacaqlarını bəyan ediblər. Onlar İraqın ərazi bütövlüyünün təmin edilməsinin vacib olduğunu bir daha vurğulayıblar. Ancaq kürd muxtariyyətinin rəhbərliyi hələlik region dövlətlərinin tələblərinə heç bir reaksiya vermir. Bunun əsas səbəbini kürdlərin İsrail və Aİ-nin bir sıra ölkələrindən dəstək alması ilə izah edirlər.

### Ərbilin oyunu: kimin marağına uyğundur?

Türkiyə Prezidenti də açıq bildirib ki, muxtariyyətin lideri Məsud Bərzani Fransanın siyasi dairələri ilə sıx təmasdadır. Ərbilin küçələrində İsrail bayraqlarının dalğalanması isə Tel-Əvivlə muxtariyyət rəhbərliyinin sıx əlaqəsinin siqnalı kimi təqdim olunur. Belə məlum olur ki, türk rəsmilərin daim vurğuladığı muxtar qurum başçılarının kənardan bu işə təhrik edilməsi əsaslıdır. Qərb sanki Yaxın Şərq üçün növbəti "bahar" hazırlığındadır.

Lakin Türkiyənin dövlət başçısı qətiyyətlə bəyan edir ki, deyilənlərin yeganə yekunu M.Bərzaninin referendumunun nəticələrini ləğv etməsi ola bilər. Bunun necə və nə zaman reallaşacağı haqqında isə fikir bildirilmir.

Bununla yanaşı, İran və Türkiyə ifadə edirlər ki, əgər qoyulan şərtə Ərbil əməl etməsə, hərbi müdaxilə gündəmə gələcək. Ekspertlər bunu kifayət qədər ciddi addım hesab edirlər. Çünki bu halda regionun növbəti irimiqyaslı ixtilaflara meydan olacağı ehtimalı yüksəlir. Həmin aspektdə Yaxın Şərqdə geosiyasi mənzərənin dəyişməsi məsələsi son dərəcə ciddi əhəmiyyət kəsb edir. Suriya və İraq məsələlərinə də məhz bu kontekstdə nəzər salmaq daha doğru olardı.

Bir çox ekspertlər belə hesab edirlər ki, Suriya və İraqda baş verənlərə ümumən Yaxın Şərq kontekstində baxmaq lazımdır. Buraya Səudiyyə Ərəbistanı başda olmaqla bir neçə ərəb dövlətinin Qətərlə bağlı mövqelərinin sərtləşməsini də daxil etmək gərəkdir. Qətər böhranının daha çox İran məsələsi ilə bağlı olduğu barədə fikirlər vardır. Çünki Doha qarşısında qoyulan şərtlər sırasında Tehranla əlaqələrin dayandırılması ayrıca vurğulanıb. Bununla hansısa dairələr ərəb dünyasını növbəti dəfə parçalayıb. İndiyə qədər Qətər məsələsində müsbət dəyişiklik yoxdur. Üstəlik, artıq ərəblərin birləşərək kimə qarşısa mübarizə apara biləcəklərindən də söhbət gedə bilməz.

Bu prosesin fonunda Suriyada Deyr əz-Zor ətrafında gərginlik yüksəlir. Orada Rusiya hərbi kontingentinə qarşı hücumlar artır. Bir neçə əsgər əsir alınır, bəziləri öldürülür, bir general isə partladılır. Məhz bu məqamda Astanada Rusiya, İran və Türkiyə İdlib məsələsində razılığa gəlirlər. Və... İraqın şimalında kürdlər müstəqillik referendumu keçirirlər. Hər kəs Ankara və Tehranın buna kəskin reaksiya verəcəyini bilirdi. Deməli, referendum olayı reallıqda Türkiyə və İranı regional miqyasda daha qarışıq bir vəziyyətə salmaq üçün ortaya atılıb. Nə yazıq ki, vətənpərvər kürdlər belə bu tora düşüblər. Onlara dəfələrlə bu addımı atmamaq barədə xəbərdarlıq edildi, lakin görünən odur ki, Ərbil qlobal geosiyasi oyunun və bəzi dövlətlərin maraqlarının qurbanı olmağa razıdır.

Bütün bunları nəzərə alaraq indi ekspertlər Rusiya-İran-Türkiyə müttəfiqliyinin meydana gələ biləcəyi barədə proqnoz verir, bunun bir sıra əlamətlərini belə sadalayırlar. Prezident R.T.Ərdoğan da bildirib ki, arada olan fikir ayrılıqlarını bir kənara qoyub, ümumi maraqlara cavab verən sferalarda (ilk olaraq təhlükəsizlik və ərazi bütövlüyünün təminində) əməkdaşlıq etmək zəruridir. Tehran da bu mövqeni qəbul edir.

Təbii ki, ekspertlərin belə bir proqnoz verməsi üçün xeyli əsaslar vardır. Ancaq burada bir incə məqam da unudulmamalıdır. Dünyada bir sıra dairələr İran, Türkiyə və Rusiya üçün Cənubi Qafqaza yaxın bir bölgədə yeni bir tələ hazırlamırlar ki? Həmin məkanda xaos yaratmaqla, onlar üç böyük dövləti qeyri-müəyyən vəziyyətə sala bilərlər. O halda nəinki sabitlik bərqərar olmaz, hətta ortaya daha geniş miqyasda separatçılıq və terror çıxar. Bir müddətdir ki, ekspertlər yeni bir terror təşkilatının yarana biləcəyindən bəhs edirlər. Özü də əvvəlcədən "bilirlər" ki, həmin təşkilatı müsəlmanlar "yaradacaqlar" və mütləq ilk növbədə regiondakı dövlətlərə qarşı vuruşacaqlar. Təbii ki, "yeni terrorçular" Rusiya və Çin istiqamətində də fəallaşacaqlar. Bu kimi fikirlər onu göstərir ki, bəzi qüvvələr gizli planlar qururlar. Onlar indi yalnız Yaxın Şərqi deyil, Qafqaz və Mərkəzi Asiyanı da alova bürüməyi hədəfləyiblər. Bu prosesin qarşısını Rusiya-İran-Türkiyə birliyi ala bilər. Onu da deyək ki, erməni terror qruplarının və siyasi dairələrinin Cənubi Qafqazda ara qarışdıranlarla əməkdaşlıq etmə ehtimalı yüksəkdir. İndidən Ermənistanın siyasi dairələri Rusiyadan uzaqlaşıb, "demokratik Qərbə inteqrasiya olmaq" barədə səsküy salırlar. Təbii ki, rəsmi İrəvanın Qərbin həqiqi demokratik dairələri ilə heç bir əlaqəsi yoxdur və ola da bilməz. Çünki həqiqi demokratiya Ermənistan rəhbərliyinin ruhuna və əməlinə tamamilə yad bir anlayışdır. İrəvanın qayğısı antiislam cəbhəsində yer almaqdan ibarətdir ki, öz mənfur niyyətlərinə çata bilsin.

Beləliklə, Cənubi Qafqaza da mümkün təsiri ola biləcək ciddi geosiyasi proseslər gedir. Onların hansının üstünlük təşkil edəcəyini zaman göstərəcək.

***Newtimes.az***

# Azərbaycanın turizm imkanları dünya səviyyəsindədir

## Bu il Azərbaycana gələn turistlərin sayında 21% artım qeydə alınıb

Ölkəmiz təkcə neft ölkəsi kimi deyil, güclü potensiala malik olan turizm dövləti kimi də tanınır. Turizmin əsasını yay turizmi təşkil etsə də, qış turizmi də inkişaf dövrünü yaşayır. Azərbaycan isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, nadir ölkələrdəndir ki, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturları və kompleksləri də yaradılıb. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan "Şahdağ" Qış-Yay Turizm Kompleksinə daxil olan "Qaya" və "Zirvə" mehmanxanalarının açılışı turistlərin istirahətinə geniş imkanlar açdı. Qış turizminin inkişaf etdirilməsi ilə bağlı atılan növbəti addımlardan biri də Qəbələdəki "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi oldu. Bu iri kompleksin inşası göstərir ki, Azərbaycanda turizmin inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. Ərazidə insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən, mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlər yaradılıb.

Kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada turistlərin trass sistemini özlərinə uyğun seçmək imkanlarının olmasıdır. Bütün dağ-xizək trass süni qar yaratma generasiya sistemi ilə təchiz edilib. Bütövlükdə "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi gün ərzində üç min nəfərə xidmət göstərmək imkanına malikdir.

### AZƏRBAYCANIN "ŞAHDAĞ" KURORTU QIŞ İSTİRAHƏTİ ÜÇÜN ƏN YAXŞI DAĞ-XİZƏK KURORTLARI SIRASINDADIR



Layihənin reallaşdırılması respublikada dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün də hərtərəfli imkanlar açır. Şahdağ" Qış-Yay Turizm, "Tufan" Dağ-Xizək Qış-Yay İstirahət komplekslərində görülən işlər Azərbaycanın turizmin inkişafı sahəsində əldə olunan uğurların göstəricisidir. Yaradılan şərait, bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Azərbaycana - Qəbələyə, Qusara səfər edə bilərlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkanlar qışda da turistləri ən gözəl istirahət mərkəzi olacaq. Bütün bunlar göstərir ki, Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir. Azərbaycanın "Şahdağ" kurortunun MDB-nin qış istirahəti üçün ən yaxşı dağ-xizək kurortlarının ilk üçlüyünə daxil edilməsi bu nailiyyətlərin göstəricisidir. Belə ki, Rusiyanın "TurStat" Analitik Agentliyi MDB-yə üzv olan ölkələrin ən məşhur dağ-xizək kurortlarının siyahısını açıqlayıb. Reytinq 2017-2018-ci ilin qış mövsümündə turistlərin yerləşdirilməsi üçün onlayn-bron sistemində tutulan yerlərin sayı barədə məlumatların təhlilinin nəticələrinə əsasən təqdim edilib. Qəbələnin yaxınlığında yerləşən "Tufandağ" da birinci onluqdadır.

Əlbəttə ki, bu gün turizm sahəsində yaradılan geniş imkanlar xarici turistlərin ölkəmizə səfər etmələrinə böyük təsir göstrərir. Son illər dövlətin dəstəyi ilə Azərbaycanda turizm sənayesi özünün inkişaf dövrünü yaşayır. Ölkəmizdə dünyada tanınmış brend hotellər fəaliyyət göstərir və müasir hotel xidmətinin qurulması istiqamətində böyük irəliləyiş əldə olunub. "Eurovision-2012", I Avropa Oyunları, "Formula-1" Azərbaycan Qran-Prisi, IV İslam Həmrəylik Oyunları kimi beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın tanıdılması, eləcə də, xarici turist axınına güclü təkan verib. Həmçinin, bir sıra xarici ölkə vətəndaşları üçün viza sisteminin sadələşdirilməsi və "ASAN viza" sisteminin tətbiqi də bu sahənin inkişafına müsbət təsir göstərir.

### TURİZM SƏNAYESİNİN ÜÇ ƏSAS APARICI QÜVVƏSİ ƏLAQƏLƏNDİRİLMİŞ ŞƏKİLDƏ FƏALİYYƏT GÖSTƏRƏCƏK

Bütün bunlarla yanaşı, bu günlərdə Azərbaycanda ilk dəfə olaraq, özəl və dövlət sektoru ilə turizm sahəsinin inkişafı üçün tərəfdaşlıq qurulub. Belə ki, ilk dəfədir ki, Azərbaycan Turizm Assosiasiyasının üzvləri sırasına turizm şirkətləri və hotellər daxil olub. "AZAL" Assosiasiyaya üzv olmaqla yanaşı, "AZTA"-nın İdarə Heyətinin tərkibinə də daxil olub və burada aviasiya nəqliyyatının fəaliyyətini əlaqələndirəcək. "AZAL"-ın Azərbaycan Turizm Assosiasiyasında fəaliyyəti ölkədə turizm sənayesinin əsas iştirakçıları - turizm şirkətləri, hotellər və aviasiya sahəsinin fəaliyyətinin üçtərəfli əlaqələndirilməsinin formalaşdırılması deməkdir. Turizm şirkətləri, hotellər və aviasiya sahəsinin iştirakı olmadan lazımi keyfiyyəti təmin etmək mümkün deyil.

"AZAL" Aviaşirkətinin Azərbaycan Turizm Assosiasiyasının İdarə heyətinin tərkibinə daxil olması dövlət başçısı tərəfindən turizm sektorunun inkişafının təmin edilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması üçün turizm sektorunun iştirakçıları qarşısında qoyduğu məqsədlərdəndir.

Turizmin inkişafında müasir nəqliyyat vasitələrinin xüsusi rolu var. Bu il Azərbaycana gələn turistlərin sayında 21% artım qeydə alınıb. Ölkəmizə avtobus və avtomobillə gələnlərin sayı çoxalıb. Turizmin inkişafı, birbaşa olaraq, hava nəqliyyatı ilə də bağlıdır. Hava nəqliyyatı isə son vaxtlar, nəinki paytaxtda, eyni zamanda, digər şəhərlərdə inkişaf edir. Görülən işlər Azərbaycan turizm sənayesinin inkişafında önəmli rol oynayacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

# ABŞ vətəndaşları: Donald Tramp xatirələrdə ən pis prezident kimi qalacaq



ABŞ vətəndaşlarının yarıdan az hissəsi (42 faiz) hesab edir ki, Amerika lideri Donald Tramp xatirələrdə ən pis prezident kimi qalacaq. Bu nəticə "Marist Poll" kompaniyasının keçirdiyi rəy sorğusunda əksini tapıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, amerikalıların 19 faizi Trampı orta, 11 faizi yüksək səviyyəli siyasətçi hesab edir. Respondentlərin 7 faizinin fikrincə isə o, ABŞ tarixinin ən yaxşı siyasətçisidir. "Prezidentliyinin ilk ilinin xeyli hissəsi keçdikdən sonra Donald Trampın elə də uğurlu olmayan reytinqi tarixin onu necə mühakimə edəcəyi gözləntisini aşağı salıb", - deyə "Marist Poll" kompaniyanın nümayəndəsi Lee M. Miringoff bildirib. Sorğu 1093 nəfərin iştirakı ilə oktyabrın 15-17-də keçirilib.

# YUNICEF: Banqladeşə qaçan 320 min arakanlı uşağın həyatı təhlükə altındadır



**UNICEF** Banqladeşə qaçan 320 min arakanlı uşağın qaçqın düşərgələrində pis şəraitdə yaşadıqlarını və həyatlarının təhlükə altında olduğunu bildirib. AZƏRTAC Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, Banqladeşin Myanma ilə sərhədində yerləşən qaçqın düşərgələrini gəzən YUNICEF-in baş direktoru Antoni Leyk burada yaşayan uşaqların tez bir zamanda yemək, təmiz su və tibbi ləvazimatlarla təmin edilməli olduğunu vurğulayıb. O, arakanlı uşaqların şahidi olduqları vəhşiliklər səbəbindən psixoloji dəstəyə də ehtiyac duyduqlarını deyib. Təşkilatın hesabatında qeyd olunur ki, 582 min arakanlı qaçqının 320 minini uşaqlar təşkil edir və natəmizlik, xəstəliklərin yayılması onların həyatını təhlükəyə atır.

# Azərbaycan və Körfəz ərəb ölkələri arasında İnvestisiya Fondunun yaradılması ilə bağlı danışıqlar aparılır



Azərbaycan və Körfəz ərəb ölkələri arasında İnvestisiya Fondunun yaradılması ilə bağlı danışıqlar aparılır. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev deyib. O bildirib ki, hazırda bununla bağlı Azərbaycanla Qətər arasında danışıqlar aparılır. Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının Ticarət Palatalar Federasiyasının baş katibi Abdulrahim Hasan Naqi də Azərbaycan və Körfəz ərəb ölkələri arasında İnvestisiya Fondunun yaradılmasının uğurlu təklif olduğunu söyləyib.

# Dövlət qulluğuna qəbulla bağlı müsabiqənin test imtahan mərhələsi noyabrda keçiriləcək



Dövlət qulluğuna qəbulla bağlı müsabiqənin test imtahan mərhələsi noyabrda keçiriləcək. AZƏRTAC xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurası sədrinin müavini Bəhram Xəlilov deyib. Onun sözlərinə görə, test imtahanından müvəffəqiyyətlə keçmiş namizədlərə sertifikatlar veriləcək. B.Xəlilov deyib: "Bu ildən Azərbaycanda dövlət qulluqçularının sertifikatlaşdırılması tətbiq ediləcək. Dövlət qulluğuna qəbul olunmaq istəyənlər test imtahanları verib müvafiq sertifikatlar alacaqlar. Bu, yenilikdir və ilk dəfə Azərbaycanda tətbiq olunacaq. Uğur qazanan şəxslər həmin sertifikatlara uyğun olaraq vakant dövlət qulluğu vəzifələrinə elan edilən müsahibələrə qatıla biləcəklər". Bir çox dövlət qulluğu vəzifəsinin vakant olduğunu deyən B.Xəlilov vurğulayıb ki, test imtahan mərhələsində açıqtipli testlərdən istifadə ediləcək. Eyni zamanda, balların hesablanması qaydası dəyişib. Keçid balları vəzifədən asılı olaraq müəyyənləşdirilib.

# Mədəniyyət və turizm naziri Biləsuvarda vətəndaşları qəbul edib



Azərbaycan Prezidentinin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərləri hər ay şəhər və rayonlarda əhali ilə görüşlər keçirirlər. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev oktyabrın 20-də Biləsuvar şəhərindəki Heydər Əliyev Mərkəzində Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonlarından vətəndaşları qəbul edib. Tədbirdən əvvəl nazir ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla yad edib. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, əvvəlki görüşlərdə olduğu kimi, bu dəfə də müraciətlər yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyəti, tarixi-mədəni abidələrin təmir-bərpası və digər məsələlərlə bağlı olub.

Qəbula yazılan Biləsuvar sakinləri rayonda "Ailə kitabxanası" layihəsinə əlavə dəstək verilməsi, milli xalçaçılığın Cənub qrupunun tədqiq edilməsi, təbiət qoruqlarına gələn turistlərin statistikasının aparılması, rayonda turizm layihələri ilə bağlı biznes planının hazırlanmasına köməklik göstərilməsi, eləcə də işlə təmin olunma barədə xahişlərini diqqətə çatdırıblar. Salyandan qəbula gələn vətəndaşların müraciətləri Əli bəy Hüseynzadənin şəxsi əşyalarının rayonun Tarix-diyarşünaslıq muzeyinə verilməsi, regionda fəaliyyət göstərən yazıçı və şairlərin əsərlərinin çapına dəstək göstərilməsi barədə olub. Həmçinin nazirliyin "Mobil kitabxana" proqramının İOS əməliyyat sistemi əsasında çalışan telefonlarda tətbiqinin yaradılması xahiş edilib.

Neftçala sakinləri rayon iqtisadiyyatını və tarixini əks etdirən eksponatların region muzeylərində sərgilənməsi, rəsm qalereyasının əsas fondunda olan əsərlərin mübadilə mexanizminin təkmilləşdirilməsi, musiqi məktəblərinin Azərbaycanın müasir bəstəkarlarının əsərlərindən ibarət dərs vəsaitləri ilə təmin edilməsi və digər məsələlərlə bağlı nazirə müraciət ediblər.

Cəbrayıl rayonundan məcburi köçkünlərin xahişləri isə Bakı şəhərində təmir olunan musiqi məktəblərinin inventar və avadanlıqlarının rayon məktəblərinə verilməsi, Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsi tərəfindən rayonun Cocuq Mərcanlı kəndində keçiriləcək konsertdə respublika incəsənət ustalarının iştirakına və tədbirin televiziya kanalları vasitəsilə işıqlandırılmasına köməklik göstərilməsi barədə olub. Qəbulda vətəndaşların müraciətlərinin bir qismi həllini tapıb, qaldırılan digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər aidiyyəti qurumlara çatdırılmaq üçün qeydə alınıb.

Nazir Əbülfəs Qarayev jurnalistlərə müsahibəsində ölkə başçısının tapşırığı ilə şəhər və rayonlarda mütəmadi olaraq keçirilən bu cür görüşlərin əhəmiyyətini bir daha diqqətə çatdırıb. Bildirib ki, qəbullar zamanı vətəndaşlar tərəfindən irəli sürülən təşəbbüslər yerlərdə mədəniyyət və turizm işinin daha səmərəli təşkilinə zəmin yaradır. Nazir tarixi-mədəni irsin qorunması, muzeylərdə ekspozisiyaların yenilənməsi ilə bağlı təşəbbüsləri xüsusi qeyd edib: "Budəfəki görüşdə də vətəndaşlarımızın mədəniyyət müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması istiqamətində maraqlı təklifləri oldu. Eyni zamanda, bölgədə turizmin inkişafı ilə bağlı təkliflər səsləndi".

Regionlarda turizmin inkişaf etdirilməsinin dövlət başçısının daim diqqət mərkəzində olduğunu deyən Əbülfəs Qarayev bütün qəbullarda bununla bağlı səslənən təkliflərin nəzərdən keçirildiyini bildirib. Nazir diqqətə çatdırıb ki, ölkəmizin zəngin mədəniyyəti turizm sənayesinin inkişafına da təsir göstərməkdədir. Dövlət başçısının Sərəncamı ilə yaradılan regional mədəniyyət və turizm idarələri bu sahədə idarəçiliyin daha səmərəli təşkilini təmin edir.

# Türk dünyasına xəyanət etmiş Türkiyə vətəndaşları...

## *Onların hələ də layiqincə cəzalandırılmaması narahatlıq doğurmaya bilməz*

***Azərbaycanın işğal olunmuş torpaqlarına qanunsuz yollarla səfər edən, beynəlxalq hüquq normalarını kobud surətdə pozan, Xankəndidə və Xocalıda ermənilərin maraqlarına xidmət edən bəyanatlar verən, sonra da mətbuat konfransı keçirərək qondarma "erməni soyqırımı"nın Ankara tərəfindən rəsmən tanınmasının "labüd" olduğunu vurğulayan, ümumilikdə, türk dünyasına xəyanət etmiş bir qrup türk vətəndaşının hələ də layiqincə cəzalandırılmaması narahatlıq doğurmaya bilməz. Bir tərəfdən də, bu xəyanətkar ünsürlər Türkiyə qəzet və saytlarına qanunsuz səfərləri və səfər təəssüratları haqqında geniş müsahibələr verir, televiziya proqramlarında nümayişkaranə şəkildə Qarabağ ermənilərinin qonaqpərvərliyindən, mövcud durumlarından pozitiv tərzdə danışırlar və bu da, öz növbəsində, ikrah hissi döğurur.***



Türkiyə kanallarında bunların çıxışlarına, kütləvi informasiya vasitələrində müsahibələrinə geniş yer ayrılması isə Türkiyənin özündə belə bu cür insanların səfərlərini təşkil edən, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinə zərbə vurmaq istəyən müəyyən qüvvələrin mövcudluğundan xəbər verir. Lakin cəzalandırılması vacib olan bu qüvvələr, əfsus ki, hələ də layiqli cəzalarını almayıblar və Azərbaycan ictimaiyyəti buna görə son dərəcə narahatdır. Azərbaycanın erməni işğalında olan ərazilərinə səfər edənləri cəzasız qoymaq, bununla da, "böyük Ermənistan" xəstəliyinə düçar olanları ruhlandırmaq erməni terrorçularının qətlə yetirdikləri türk diplomatlarının, XX əsrin əvvəllərində ən ağır işgəncələrə məruz qalaraq öldürülənlərin, Xocalıda soyqırımına məruz qalanların yaşayanların ruhlarına hörmətsizlik olardı.

### Səfər, əslində, Ankara əleyhinə yönəlmiş bir addımdır

Türkiyə ictimaiyyəti həmin şəxslərin erməni işğalı altında olan Dağlıq Qarabağa qanunsuz səfəri ilə bağlı ciddi şəkildə məlumatlandırılmalı və Türkiyə vətəndaşlarının işğal altındakı Azərbaycan torpaqlarına qeyri-qanuni səfəri, ilk növbədə, Ankara əleyhinə yönəldilmiş bir addım kimi dəyərləndirilməlidir. Çünki Yerevana, həmçinin, işğal altında olan Dağlıq Qarabağa qeyri-qanuni səfər, Türkiyə əleyhinə fəaliyyət göstərən Xalqların Demokratik Partiyasının üzvləri tərəfindən həyata keçirilib və Türkiyənin dost və qardaş münasibətlərində olduğu ölkələrə qarşı yönəldilib. "HaberTürk" kanalında efirə gedən "Türkiyənin nəbzi" verilişinin 27 sentyabr buraxılışında U.Uras "Mən bu həftə Artsaxda idim" deməklə kifayətlənməyərək, "Artsax" deyincə Dağlıq Qarabağı nəzərdə tutduğunu bildirməsi əvvəlcədən düşünülmüş və erməni ideologiyasının iradəsinə uyğun bir gediş etdiyini sübut edir və ən başlıcası, bu, Azərbaycanla Türkiyə kimi iki qardaş ölkə arasındakı münasibətlərə kölgə salmağa yönəlmiş addımdır. Türkiyə vətəndaşları olan şəxslərin bu səfərini başa düşmək çox çətindir. Çünki bu səfəri edənlər bizim üçün dost, qardaş olan Türkiyənin vətəndaşlarıdır və məsələnin sırf siyasi və qanuni aspektləri ilə yanaşı, mənəvi tərəfləri də var. Əslində, bu qanunsuz səfərdə iştarak edənlərin fəaliyyəti, ümumilikdə, türk millətinə qarşı olduğu, təkcə Dağlıq Qarabağ deyil, Kürdüstan məsələsində də iştirakçı olduğu, eyni zamanda, separatçılarla əlaqələri ictimaiyyətə bəllidir. Kimdir bu şəxslər? Bu vaxta qədər hansı fəaliyyətlə məşğul olub və nə kimi mövqe sərgiləyiblər? Ufuk Uras Türkiyə Böyük Millət Məclisinə müstəqil namizəd kimi seçilib. 2007-ci ilin avqustundan Azadlıq və Həmrəylik Partiyasına qatılaraq, sədr təyin olunan U.Uras kürd probleminin parlamentdə həll olunmasını iddia edərək, Sülh və Demokratiya Partiyasına keçid edib. Eyni zamanda, Yaşıllar və Sol Gələcək partiyalarının qurulmasında iştirak edib. Göründüyü kimi, bu şəxsin siyasi fəaliyyəti separaçılıq üzərində qurulub.

### Erol Katırçıoğlu erməni lobbisinin Türkiyədəki fəallarından hesab olunur

Türkiyənin qondarma "erməni soyqırımı"na görə ermənilərdən üzr istəməsini tələb edən Erol Katırçıoğlu isə erməni lobbisinin Türkiyədəki fəallarından hesab olunur və əsas missiyası separatizmi təbliğ etməkdir. Azərbaycan əleyhinə daha bir addım Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında Azərbaycan əleyhinə iki ədalətsiz qətnamənin qəbulu zamanı Türkiyə deputatlarının da həmin sənədlərin lehinə səs verməları oldu. Azərbaycana qarşı qərəzli münasibətin, eyni zamanda, erməni lobbisinin, anti-türk və anti-islam dairələrin sistematik fəaliyyətinin əyani təzahürü olan məlum qətnamənin türkiyəli millət vəkilləri tərəfindən dəstəklənməsi heç bir izahı olmayan bir hadisə kimi Azərbaycan xalqının yaddaşına yazıldı. Şübhəsiz ki, cəmiyyətimizdə son dərəcə ciddi etirazla qarşılanan bu məsələ də Azərbaycan-Türkiyə münasibətlərinə xələl gətirməyə hesablanıb. Ona görə də, bu məsələlərlə bağlı Türkiyənin təxirəsalınmadan ciddi tədbirlər görməsi vacibdir. Necə ki, Azərbaycan xalqı və Prezidenti İlham Əliyev hər zaman ən çətin anında Türkiyənin yanında olub və Azərbaycanla yanaşı, Türkiyənin də maraqlarını qoruyub, dost və qardaş ölkənin əleyhinə səsləndirilən iddialara tutarlı cavablar verib. Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının sammitində Ermənistan prezidenti Serj Sarkisyan Türkiyə Prezidenti, dövləti, xalqı haqqında yalanlar söyləyərkən, şər-böhtan səsləndirərkən Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətlə onun sözünü kəsib, "Türkiyə nümayəndələri burada yoxdursa, mən varam" deyərək qardaş ölkənin maraqlarını qoruduğu kimi bu gün adekvat addımlar da gözlənilməkdədir və eyni həssaslığı Türkiyədən gözləmək Azərbaycan xalqının və ictimaiyyətinin mənəvi haqqıdır. Ermənipərəst qüvvələrin, dünyadakı erməni lobbisinin Azərbaycana təzyiqlər etməsi bizimçün, əslа, təəccüblü deyil. Amma həmin qüvvələrin qardaş Türkiyənin nümayəndələrini Azərbaycana qarşı yönəltmələri və onların da özlərini ermənipərəst deputatlar kimi aparmaları bu gün, haqlı olaraq, Azərbaycan cəmiyyətində ciddi narahatlıq doğurub və böyük etiraza səbəb olub. Ümid edirik ki, Türkiyə dövləti və ölkə rəhbərliyi Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinə ləkə ola biləcək bu hadisələrlə bağlı lazımi ölçülər götürəcək, dostluğumuzun və qardaşlığımızın bundan sonra da davam etdirilməsi üçün gərəkli qərarlar verəcək.

*İnam HACIYEV*

# Yeni Azərbaycan Partiyası xalqa xidmət edən partiyadır

***Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar YAP Ağdam rayon Maliyyə İdarəsi ərazi ilk partiya təşkilatında tədbir keçirilib.***



Tədbirdə çıxış edən YAP Ağdam rayon Maliyyə İdarəsi ərazi ilk partiya təşkilatının sədri Rəşad Məhərrəmov Yeni Azərbaycan Partiyasının tarixi zərurətdən yarandığını və çox böyük sınaqlarla üz-üzə qalan Azərbaycan xalqını düşdüyü ağır vəziyyətdən xilas etdiyini bildirib: "Yeni Azərbaycan Partiyası ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün, zamanın tələblərinə uyğun olaraq, zərurətdən yaranmış partiyadır. Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilati olaraq avanqard siyasi qüvvəyə çevrilib. Bu isə dünənin, bu günün, gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin və etimadının dayandığını bir daha sübut edir".

Tədbirdə YAP fəallarından Asim Muradov və Ələsgər Hüseynov çıxış edərək, Yeni Azərbaycan Partiyasının 25 illik fəaliyyəti dövründə Ümummilli Lider Heydər Əliyevin ideyalarına əsaslanaraq, zəngin və şərəfli inkişaf yol keçdiyini bildiriblər: "Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə hərc-mərclik, anarxiya və özbaşınalığın hökm sürdüyü bir vaxtda Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və iradəsi ilə yaradılan Yeni Azərbaycan Partiyası bu gün, nəinki ölkə daxilində, hətta regionda lider siyasi qüvvəyə çevrilib. Ulu Öndərin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə YAP son illər böyük inkişaf yolu keçib. Hazırda üzvlərinin sayı 700 mini ötən partiya xalqımızın maraqlarını ifadə edən güclü və vahid siyasi qüvvədir".

**ZÜMRÜD**

# YAP Xaçmaz rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyi münasibətilə növbəti tədbir keçirib



Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə Xaçmaz rayonunda silsilə tədbirlər davam edir. Bu silsilədən növbəti tədbir dünən YAP Xaçmaz rayon təşkilatı nəzdində fəaliyyət göstərən Heydər Əliyev İdeoloji Mərkəzində keçirilib.

İlk öncə, gənc Heydərçilərin ifasında Dövlət Himni səslənib.

Görüşdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini Sevinc Sədullayeva partiyanın yaranma tarixindən danışıb. YAP-ın ölkəmiz və xalqımız üçün çətin, mürəkkəb bir dövrdə yarandığını deyən natiq bildirib ki, müstəqilliyimizin ilk illərində ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi ucbatından Azərbaycanın bir dövlət kimi varlığı şübhə altında qalmışdı. Məhz belə bir ağır dövrdə xalqımız böyük ümidlə üzünü Naxçıvana, Ulu Öndər Heydər Əliyevə tutdu: "Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı yeni və müasir Azərbaycanın yaranmasını şərtləndirdi".

Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası böyük çətinliklərə sinə gərərək, həyata keçirdiyi uğurlu siyasətlə xalqın partiyası olduğunu sübut edib. Məhz əsasını Ümummilli Lider Heydər Əliyevin qoyduğu bu yolda partiyamız Cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla fəaliyyət göstərir.

Tədbirdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru, YAP Xaçmaz rayon təşkilatı idarə heyətinin üzvü Könül Əskərova " YAP Müstəqil Azərbaycan dövlətinin dayağıdır" mövzusunda məruzə ilə çıxış edib. Sonda gənc Heydərçilərin ifasında Ulu Öndərə və partiyaya həsr olunan şeirlər dinlənilib.

**R.HÜSEYNOVA**

# Tərtərdə YAP-ın yubiley tədbirləri davam edir

Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Tərtər rayon təşkilatının Rayon Mərkəzi Xəstəxanası, Maliyyə İdarəsi və Tərtər Paylayıcı Elektrik-Şəbəkəsi və "Qarabağ ER" MMC ərazi ilk partiya təşkilatlarında keçirilən tədbirlərdə rayon təşkilatı şurasının üzvləri-Kamil Məmmədov, Əli Əliyev və Gülarə Əhmədova iştirak ediblər.



Tədbirlərdə öncə, Ulu Öndər Heydər Əliyevin xatirəsi sükutla yad edilib. Rayon Mərkəzi Xəstəxanası ərazi ilk partiya təşkilatının sədr müavini Gülarə Əhmədova, YAP fəallarından Bəkir Nağıyev, Çinarə Əzizbəyli, Lalə Rəhimli, Toğrul Paşayev, Maliyyə İdarəsi ərazi ilk partiya təşkilatının sədri Cəbi Hümbətov, YAP fəallarından Əli Əlizadə, Zahid Təhməzov, Tərtər Paylayıcı Elektrik-Şəbəkəsi ərazi ilk partiya təşkilatında təşkilatın sədri Sərvan Məmmədov və YAP fəallarından Vahid Əhmədzadə, Vüqar Hüseynov, "Qarabağ ER" MMC ərazi ilk partiya təşkilatının sədri Vəli Albəndov, YAP fəallarından Sovet Bədəlov, Aysəf Nəcəfli çıxış edərək, bildiriblər ki, ölkəmizdə Yeni Azərbaycan Partiyası özünün sıralarında 700 mindən artıq partiya üzvünü birləşdirərək, böyük sosial bazaya malik olmaqla, ölkəmizin ictimai-siyasi həyatında mühüm və sanballı rol oynayan siyasi təşkilatdır. Yaradıcısı Ümummilli Lider Heydər Əliyev ideyaları ilə silahlanmış YAP, eyni zamanda, regionda ən böyük siyasi təşkilatdır.



Tədbirdə Rayon Mərkəzi Xəstəxanası ərazi ilk partiya təşkilatında keçirilən tədbirdə çıxış edən YAP rayon təşkilatı şurasının üzvü Kamil Məmmədov vurğulayıb ki, Ulu Öndərin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyası olaraq, hələ uzun illər doğma Azərbaycan xalqının və Azərbaycan dövlətinin gələcəyi naminə fəaliyyət göstərəcək və bunun üçün hər bir partiya üzvü öz iradəsini ortaya qoyacaqdır.

**R.KAMALQIZI**

## Qanunsuz ov edən şəxslər cərimələnib

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən "Ovçuluq haqqında" və "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə əməl olunması vəziyyətinin araşdırılması, çöl quşlarının və vəhşi heyvanların qanunsuz ovlanması hallarının qarşısının alınması məqsədilə ölkə ərazisində növbəti reyd keçirilib. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, keçirilən reyd zamanı Şabran rayonu ərazisində, "Ağzıbir" ovçuluq təsərrüfatının Xəzər dənizi sahil zolağında qanunsuz ov edən Cəlilabad rayon sakini Aqil Abdullayev, Şabran şəhər sakini Sadiq Həmzəyev və Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşı Sulaiman Mohammad Hassan Fakher saxlanılıb. Onlardan şahin quşunun tutulması üçün istifadə edilən ilgək, tor, gözlük kimi qadağan olunmuş ov alətləri və 10 göyərçin quşu aşkar edilərək götürülüb. Faktla bağlı təqsirkar şəxslər barəsində qanunauyğun qaydada protokollar tərtib edilib və İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən hər biri 1000 manat məbləğində cərimə olunub, qadağan olunmuş ov alətləri məhv edilib və göyərçin quşları təbiətə buraxılıb.

# YAP Quba rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubiley tədbirləri davam edir





***Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Quba rayon təşkilatı Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı ərazi ilk partiya təşkilatında tədbir keçirilib. Tədbirdə Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbiri giriş sözü ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının direktoru Əli Allahverdiyev açaraq, Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıb.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov bildirib ki, bu gün Azərbaycanın siyasi həyatında əhəmiyyətli rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi qeyd olunur. O, YAP-ın yaranmasını zərurətdən doğan amil kimi dəyərləndirərək, xüsusilə, qeyd edib ki, bu gün partiya bir çox mühüm məsələlərdə üzərinə öhdəliklər götürmüş və bu öhdəlikləri şərəflə həyata keçirmişdir. Rayon təşkilatının sədri vurğulayıb ki, YAP ölkəmizin avanqard qüvvəsi kimi xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini verib: "Ulu Öndər Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası ölkəmizdə ən güclü, ən mükəmməl siyasi təşkilatdır və ictimai nüfuzuna görə, onunla müqayisə edilə biləcək siyasi təşkilat yoxdur".

Tədbirdə YAP Quba rayon təşkilatının idarə heyətinin üzvü Həsən Günəşli, təşkilatın qadınlar şurasının sədri Aysel Şeydayeva və başqaları çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıblar.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş üzvlərə partiya vəsiqələri təqdim olunub.

**NƏZAKƏT**

# "Səbail gəncləri "ağ ölümə" yox deyir!" mövzusunda tədbir keçirilib

Səbail rayon icra hakimiyyəti və rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə rayonun bütün orta və ali təhsil ocaqlarında narkomaniya əleyhinə aylıq çərçivəsində ekspert və mütəxəssislərin iştirakı ilə maarifləndirici tədbirlər təşkil olunur. "Səbail gəncləri "ağ ölümə" yox deyir!" mövzusunda növbəti tədbir paytaxtın mərkəzindəki 132-134 №-li Təhsil Kompleksinin akt zalında keçirilmişdir. Tədbirdə bildirilib ki, narkomaniya ilə mübarizə və onun profilaktikası vacib məsələlərdən olmaqla yanaşı, bu gün gənclərin formalaşması, onların sağlam böyüməsində ən mühüm amillərdən biridir.



Səbail rayon icra hakimiyyəti rəhbərliyinin, Dövlət Komissiyası İşçi Qrupunun, ağsaqqalların, pedaqoji işçilərin, din xadimlərinin, ictimaiyyət nümayəndələrinin, orta məktəblərin yuxarı sinif şagirdlərinin iştirakı ilə keçirilən tədbiri rayon icra hakimiyyəti başçısının müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Səbail rayon Komissiyasının sədri Eldar Ağayev açıq elan edərək, qonaqları təqdim edib. Qeyd olundu ki, bəşəriyyətin gələcəyi üçün ən dəhşətli bəla olan narkomaniyaya qarşı mübarizədə yalnız dövlətin deyil, eləcə də, cəmiyyətin hər bir üzvünün fəal rol oynaması çox zəruridir. Bildirib ki, 1996-cı ildə Ulu Öndər Heydər Əliyev tərəfindən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradıldı. Bu, Fərmanda narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilərək, bu sahədə dövlət siyasətinin strateji istiqamətləri dəqiq göstərilib. Azərbaycan Respublikası, həmçinin, müvafiq beynəlxalq sənədlərə və təşəbbüslərə də qoşulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu strateji kursu dövlətimizin əsas prioritetlərindən biri kimi davam etdirərək, narkomanlıqla mübarizədə müsbət nəticələrin əldə edilməsi məqsədilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Tədbirdə çıxış edən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupunun əməkdaşı Raqif Allahverdiyev, Səbail rayon Polis İdarəsi 9-cu Polis Bölməsinin rəisi, polis polkovnik-leytenantı Elsevər Qədirov, Səbail rayon Polis İdarəsinin bölmə rəisi, polis mayoru Ədalət Ağayev, İçərişəhər "Həzrət Məhəmməd" məscidinin axundu Hacı Sadiq Əsgərov, Bakı şəhər Narkoloji Dispanserinin həkim-narkoloqu Pərvanə Məmmədova, Səbail rayon Polis İdarəsinin narkotiklərlə mübarizə bölməsinin əməkdaşı, polis baş leytenantı Bəhrəm Qasımzadə və digər çıxışçılar ölkənin hər yerində narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkomanlığa düçar olmuş şəxslərin sağlam həyata qaytarılması, qanunvericiliyin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı qarşıya ciddi vəzifələr qoyduğunu qeyd ediblər.

Tədbirdə yeniyetmələrə narkomanlardan uzaq durmaq və cəmiyyətdə bu bəlaya qarşı mübarizə aparmaq üçün tövsiyələr, dəyərli məsləhətlər verilib.

Sonda tədbir iştirakçılarının təklifləri dinlənilərək onları maraqlandıran suallar cavablandırılıb.

Tədbirin sonunda narkomaniyanın fəsadları ilə bağlı film nümayiş etdirilib və hər bir iştirakçıya narkomaniyanın fəsadlarını göstərən kitabçalar paylanılıb.

**Rəfiqə HÜSEYNOVA**



# *Bundan artıq inkişaf etməyiblər*

**RƏFİQƏ**

***Ötən mitinqdən yazdım. Yazdım ki, "Milli Şura"nın aksiyası biabırçı fiaskoya uğurayıb. Ancaq nə faydası, elə yenə də həmin kəslərdir. Ona görə də, bu dəfə mitinqin AXCP və "Milli Şura" rəhbərliyi tərəfindən "10 min nəfər adam gəlmişdi" kimi sərsəm iddiaları barədə yazmayacağam. Bu dəfə Avropa İttifaqının bayrağının qaldırılmasından yazacağam. Bu, mənə 2005-ci ildə "Azadlıq" seçki blokunun ABŞ-ın o zamankı prezidenti Corc Buşun portretlərinin, eləcə də, ABŞ bayrağının qaldırılmasını xatırlatdı. Bax, məsələ də ondadır ki, o vaxtdan bu günə kimi bunların nə ağılları, nə dərrakələri artıb, nə də ki, onun-bunun ayaqları altında yalmanmaq ehtirasları səngiyib.***

### 2005-ci ildə Cəmil Həsənli haradaydı? Gültəkin Hacıbəyli hansı qabdan çörək yeyirdi?

Adama deyərlər, məgər sizin Ə.Kərimlinizi "hakimiyyətə gətirəcək qüvvə" Avropadırmı? Axı vaxtilə ABŞ preziedentinin şəkillərini təpəniz üstünə qaldıranda, bu manevr sizə heç bir səmərə gətirmədi! İndi bu manevrləri niyə təkrar edirsiniz ki? Ay qadan alım, söz tapmadın deməyə?! Nə etsinlər, bundan artıq inkişaf etməyiblər. Ona görə də elə onun-bunun ayaqları altında yalmanmağa adət ediblər.

Sual yaranır, 2005-ci ildə "Azadlıq" blokunun mitinqlərində Corc Buşun portretlərini, ABŞ bayrağını təpələriniz üzərində qaldıranda, Ə.Kərimli, Lalə Şövkət, Mirmahmud Mirəlioğlu, İ.Qəmbər, Əli Əliyev və s. qol-qola girib, "Qələbə"yə tərəf gedərkən, C.Həsənli haradaydı? Gültəkin Hacıbəyli hansı qazandan çörək yeyirdi? Bax, indi cavab verin də! Əgər dinmirsinizsə, qoy mən deyim. Onda C.Həsənli AXCP-yə və Ə.Kərimliyə tüpürərək, parlamentdəki mandatını daha üstün tutub, ikiilli Milli Məclis kreslosundan yapışmışdı. Ona görə də, həmin o qol-qola gedənlər sıralamasında da yox idi. İndi tarix tərsinə fırlanır. İndi İ.Qəmbər, Lalə Şövkət, M.Mirəlioğlu, Ə.Əliyev ortada yoxkən, C.Həsənli göbələk kimi pırttayıb düşüb ortaya. Yanında da Gültəkin Hacıbəyli də var, Bax, məsələnin məğzu də budur ki, nə C.Həsənli, nə də ki, Gültəkin Hacıbəyli deputat seçilmədiklərinə görə, indi olublar "Milli Şura"nın gülü-bülbülü.

Ancaq xəyallardan da ayılın. Elə zənn edərsiniz ki, bəlkə nə vaxtsa deputat seçiləcəksiniz, mümkün deyil, bundan sonra sizlərin deputat seçilməyiniz qaldı dəvənin quyruğu yerə dəyənə, amma yenə də tüpürdüyünüzü yalamayın, heç olmasa. Ancaq gecdir, nə bilim, istər dindarların, istərsə də ermənilərin də üzv olduqları Avrasiya İttifaqının bayrağını belə başınız üzərinə qaldırsanız, bu işin sonu olmayacaq. Özünüz də yaxşı bilirsiniz, sadəcə, qoymusunuz özünüzü o məsələyə...

# Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə bağlı tədbirlər davam edir






### DAŞKƏSƏN

Dünən YAP Daşkəsən rayon təşkilatının paylayıcı elektrik şəbəkəsi, Sukanal İdarəsi, Telekommunikasiya Qovşağı və Kapital Bankın Daşkəsən rayon filialı ərazi ilk partiya təşkilatlarında partiyanın 25 illik yubileyi ilə bağlı tədbirlər keçirilib.

Yığıncaqlarda çıxış edənlər ötən 25 ildə şərəfli yol keçən Yeni Azərbaycan Partiyasının möhtəşəm siyasi və iqtisadi uğurlarından söz açıblar. Çıxışlarda vurğulanıb ki, bu gün öz ətrafında yarım milyondan çox insanı birləşdirən Yeni Azərbaycan Partiyası, nəinki ölkənin, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilib: “Heç şübhəsiz ki, bu nailiyyətlər Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz təməlin və bu gün ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasəti nəticəsində mümkün olub”.

Həmçinin bildirilib ki, 25 il ərzində ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurların təməlində dayanan, yekdil xalq birliyini özündə ehtiva edən və xalqımızın düşdüyü bəlalardan xilas olmasında göstərdiyi xidmətlərdən əlavə böyük siyasi birlik, həmrəylik nümayiş etdirən Yeni Azərbaycan Partiyası hələ uzun illər ərzində Azərbaycan xalqına xidmət göstərəcək güc sahibi və qürur mənbəyi olaraq qalacaqdır.

### ZƏRDAB

YAP Zərdab rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyi münasibəti ilə növbəti tədbirini Rayon Uşaq İncəsənət Məktəbi ərazi ilk partiya təşkilatında keçirib. Tədbiri giriş sözü ilə açan YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova YAP-ın ötən 25 ildə keçdiyi çətin və şərəfli yolundan danışıb. O, YAP-ın Azərbaycan tarixində son dərəcə ağır və keşməkeşli günlərdə, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yarandığını bildirib. P.Mahmudova, həmçinin, bildirib ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz regionun lider dövlətinə çevrilib və Azərbaycanın bugünkü inkişafı, tərəqqisi hər bir Azərbaycan vətəndaşında və YAP-ın hər bir üzvündə qürur hissi doğurur.

Tədbirdə YAP Zərdab rayon təşkilatı Uşaq İncəsənət Məktəbi ərazi ilk partiya təşkilatının sədri Mətanət Namazova, şura üzvü Gülnaz Məmmədova, Ağdaş Regional Mədəniyyət və Turizm İdarəsinin Zərdab rayonu üzrə nümayəndəsi Urfan Əhmədov və digərləri çıxış edərək, bildiriblər ki, Ümummilli Lider Heydər Əliyev müstəqilliyinin ilk illərində ağır siyasi böhran yaşayan Azərbaycanı yaranmış vəziyyətdən xilas etməkdə misilsiz rol oynamışlar. Hazırda Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə partiya öz tarixi missiyasını layiqincə davam etdirir”.




### YEVLAX

Dünən YAP-ın yaranmasının 25 illiyi münasibəti ilə Yevlax şəhər 2 saylı Uşaq Musiqi Məktəbinin təşkilatçılığı ilə Yevlax şəhər Yaradıcılıq Mərkəzində konsert proqramı təşkil olunub. Tədbirdə çıxış edən Yevlax şəhər 2 Saylı Uşaq Musiqi Məktəbinin drektoru Allahverdi Cəbrayılov, YAP Yevlax şəhər təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev, Bərdə Regional Mədəniyyət və Turizm İdarəsinin nümayəndəsi Əhliyyət Əliyev vurğulayıblar ki, müstəqil Azərbaycan və Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin ideyalarının ətrafında yaranan və Azərbaycan xalqına bəxş olunan şah əsərləridir: “Bu gün isə müasir müstəqil Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə işıqlı və uğurlu gələcəyə doğru inamla addımlamaqdadır”.

Sonda tədbiri təşkil edən Yevlax şəhər 2 saylı Musiqi Məktəbinin kollektivi yüksək təşkilatçılıq bacarığına görə Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının və mədəniyyət həmkarları təşkilatının fəxri fərman və diplomları ilə təltif olunublar.

***R.HÜSEYNOVA***

# Göyçayda YAP-ın 25 illik yubileyi qeyd olunub



Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar Göyçay rayon təşkilatının təşkil etdiyi silsilə tədbirlərdən biri olan “Heydər Əliyev islam həmrəyliyi ideyasının banisidir” mövzusunda tədbir keçirilmişdir. YAP Göyçay rayon təşkilatının inzibati binasında keçirilən tədbiri YAP Göyçay rayon təşkilatının sədri S.Şükürov açaraq tədbirin məqsədi haqqında ətraflı məlumat verdi. Natiq bildirdi ki, Ulu Öndər Heydər Əliyevin islam dininə münasibəti, Onun Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra prezidentlik səlahiyyətlərini yerinə yetirmək üçün 1993-cü il 10 oktyabr tarixində andiçmə mərasimindəki nitqində açıq şəkildə ifadə olunmuşdur. Bu nitqində Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının mədəniyyətinin inkişafında, tarixində, milli-mənəvi dəyərlərimizin nəsildən-nəslə ötürülməsində islam dininin rolundan geniş bəhs etmişdir.

Daha sonra çıxış edən Əzim Rəfiyev bildirdi ki, Ulu Öndər Heydər Əliyev islam dininin mahiyyəti, onun mütərəqqi, qüdrətli bir din olduğu və Azərbaycan xalqının həyatında mühüm rol oynadığını həmişə vurğulamışdır. Ulu Öndər Təzəpir məscidində dindarlarla görüşlərinin birində islamın tərəqqipərvər və dünyəvi əhəmiyyətindən danışaraq demişdir: “Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu islam dini özünün mütərəqqi olduğunu və eyni zamanda, islam dininə itaət edən adamların hamısının nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli insanlar olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir”.



***NƏZAKƏT***

# 2018-ci ildə Azərbaycanda 1,5 faizlik iqtisadi artım olacaq

İqtisadiyyat Nazirliyi tərəfindən 2018-ci il və sonrakı 3 il üzrə hazırlanmış ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə əsasən gələn il ölkədə ÜDM-in real ifadədə artımı 1,5 faiz olmaqla 69,4 milyard manat təşkil edəcək. AZƏRTAC xəbər verir ki, bu barədə 2018-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatında qeyd edilib. Sənəddə deyilir ki, qeyri-neft sektorunda ÜDM real ifadədə 2,9 faiz artaraq 47,6 milyard manat olacağı proqnozlaşdırılır. Özəl sektorun ÜDM-də payı 83 faiz həcmində nəzərdə tutulur. 2018-ci ildə əsas kapitala yönəldiləcək investisiyaların həcmi 15,9 milyard manat proqnozlaşdırılır ki, bunun da 51,5 faizi daxili investisiyaların, 48,5 faizi isə xarici investisiyaların payına düşür.



Ümumi investisiyaların 9,5 milyard manatının qeyri-neft sektoruna, 6,4 milyard manatının isə neft sektoruna yönəldilməsi nəzərdə tutulur. 2018-ci ildə qeyri-dövlət investisiyalarının həcmi 9,1 milyard manat olmaqla, ümumi investisiyaların 57,2 faizini, dövlət investisiyalarının həcmi 6,8 milyard manat olmaqla, ümumi investisiyaların 42,8 faizini təşkil edəcəyi proqnoz edilir. Növbəti ildə orta aylıq əməkhaqqının ötən illə müqayisədə real ifadədə 0,5 faiz artaraq 549,7 manat olacağı proqnozlaşdırılır.

# Müsavat icazəsiz yürüş-mitinqlə növbəti iğtişaşlar törətməyi planlaşdırır

## *Qanunla konkret bir məkan müəyyən olunmadıqda, aksiyanın keçirilməsi yolverilməz hesab olunur*

***Sərbəst toplaşmaq azadlığı fundamental hüquqlardan biridir və Azərbaycanda müvafiq qanunvericiliyin tələblərinə üyğun olaraq, vətəndaşların bu istiqamətdə öz hüquqlarından istifadə etməsi üçün heç bir maneə yoxdur. Sərbəst toplaşmaq hüququ və bu barədə qanunvericilik aktının olmasından sui-istifadə etməyə çalışanlar, eyni zamanda, onu da bilməlidirlər ki, qanunla xüsusi qadağan olunmuş ərazilər istisna edilir. Həmçinin konkret bir məkanın müəyyən olunmadığını və xaotik xarakter daşıyacaq yürüşün hələ hansı məkanları əhatə edəcəyinin məlum olmamasını nəzərə alsaq, bu aksiyaya icazə verilməsi qanunvericiliyə zidd ola bilər.***



Digər tərəfdən, hal-hazırda məsələnin hüquqi aspektləri ilə yanaşı, həm də mənəvi tərəfləri də mövcuddur və geopolitik nöqteyi-nəzərdən yanaşsaq, hazırda beynəlxalq aləmdə Azərbaycana qarşı erməni lobbisinin, ermənipərəst qüvvələrin təhrikləri ilə müxtəlif təzyiq cəhdlərinin planlaşdırıldığı məqamda daxili çaxnaşmalara və təxribatlara yol vermək vətəndaşlıq normalarına belə ziddir. Hər bir partiya, eləcə də, hətta hər bir vətəndaş üçün belə milli maraqlar prioritet hesab olunmalı və fəaliyyəti xalqın maraqlarına xidmət etməlidir. Beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyi, nüfuzu müzakirə mövzusu olduğu bir vaxtda, xalqın və dövlətin mənafeyinin müdafiəsi əvəzinə, səbəbsiz mitinq təşəbbüsü təbii ki, sifariş xarakteri daşıyır və bu təşəbbüs ictimai qınaq obyektidir. İğtişaşların törədilməsində həmişə müstəsna rolu olan Müsavat partiyasının aksiya keçirmək cəhdi yenə də iğtişaş törətmək məqsədi daşıyır və hər bir sahədə uğurlar, nailiyyətlər əldə edildiyi, inkişafa və tərəqqiyə nail olunduğu bir vaxtda, heç bir əsas, sosial sifariş olmadan aksiya keçirmək, anti-Azərbaycan qüvvələrdən siyasi və maddi dəstək əldə etmək niyyəti güdür.

### Ermənipərəst Yaqland Arif Hacılını qarşıdurmalar törətməyə həvəsləndirib

Avropa Şurasında Azərbaycanın mövqeyi barədə danışıqlar getdiyi, insan hüquq və azadlıqlarının pozulması ittihamı ilə Yaqland kimi bir ermənipərəstin sırf Azərbaycan əleyhinə çağırışlar etdiyi bir zamanda, həmçinin, ölkəmizin bu şurada qalıb-qalmaması müzakirə obyekti olduğu bir vaxtda, ələlxüsus siyasi əqidəyə görə heç bir məhkum olmadığı halda, siyasi məhbuslara azadlıq şüarı ilə keçirilən aksiya xalqın mənafeyinə necə xidmət edə bilər? Əslində, bu, daha çox ermənilərin və ermənipərəst qüvvələrin yürütdüyü siyasətə, antiazərbaycançı qüvvələrin maraqlarına xidmət edir və AŞPA kimi ikili standartlar siyasəti yürüdən beynəlxalq qurumlara arqument olaraq təkrar təzyiqlərinə əsas verir. Bir sözlə, bu, yalnız Azərbaycan dövləti və xalqı əleyhinə fəaliyyət kimi dəyərləndirilə bilər. Dağlıq Qarabağ müharibəsinin yenidən başlanmasının mümkünlüyü, bu məsələdə ABŞ və ATƏT-in rolu mövzusunda start verilən növbəti dinləmələrdə, onsuz da, ABŞ Helsinki Komissiyası yenə müzakirə predmeti olaraq, Azərbaycanda İnsan hüquq və azadlıqları barədə məsələlərə üstünlük verir və belə bir məqamda da xalqın mənafeyini düşünmədən, ölkə daxilində süni şəkildə iğtişaş yaratmaqla Kristofer Smit kimi ermənipərəstlərin əlinə əsas verməyə, xəyanətdən başqa nə ad vermək olar? Azərbaycan xalqının və dövlətinin Dağlıq Qarabağ kimi yaralı yeri olduğu halda, bu problemin müzakirə obyektinə çevrildiyi bir vaxtda, milli maraqlardan çıxış edərək, xalqın mənafeyinə xidmət edəcək fəaliyyət sərgiləsəydilər, bunu xalqın yaddaşına yaza bilərdilər. Amma şəxsi mənafelərini, ambisiyalarını, maddi dəstəyi üstün hesab etdiklərinə görə, yenə də müsavatçılar üçün milli maraqlar arxa planda yer alır. Bakı şəhər İcra Hakimiyyəti tərəfindən icazə verilməməsinə baxmayaraq, Müsavat partiyası oktyabrın 21-də etiraz yürüşü keçirməyi planlaşdırır. Konkret müəyyən olunan bir məkanda deyil, şəhərin müxtəlif istiqamətlərində nəzərdə tutulan yürüşün xaotik olacağı da qabaqcadan bəlli olur. Gediş-gəlişə, nəqliyyata maneçilik törədiləcəyi və eyni zamanda, bağ və parklarda qətnamə səsləndirilməsi cəhdləri ilə, insanların asudə vaxtının və istirahətinin pozulacağı da istisna edilə bilməz.

Müsavat partiyasının aksiya adı altında iğtişaş törətmək cəhdləri yalnız xaricdən siyasi dəstək və ələlxüsus da, maliyyə resursları əldə etmək üçün nəzərdə tutulub. Müxalifətlə xalq arasında, məhz bu səbəbdən, dərin bir uçurum yaranıb və xalq yaxşı başa düşür ki, Azərbaycanın əleyhinə çalışan qurumlar, fondlar, lobbilər və təşkilatların dəstəyi ilə fəaliyyət göstərən müxalifət xalqın maraqlarını deyil, onları maliyyələşdirən qurumların mövqeyini müdafiə edəcək. Hədəfləri isə Azərbaycanın gələcəyi, inkişafı deyil, xaricdən daha artıq maliyyə yardımları almaqdır. Mitinqlər yolu ilə sabitliyi pozmaq cəhdlərinə isə, heç zaman nail ola bilməyəcəklər. Çünki xalq buna heç zaman imkan verməyəcək.

***İnam HACIYEV***

# Ənənəvi müxalifətdə Rəsul Quliyev qasırğası

## *Eks-spiker: "Nə ölkə daxilində, nə də xaricdə bu hakimiyyətə alternativ qüvvə heç mikroskopla belə görünmür"*

***ABŞ-da mühacir həyatı yaşayan eks-spiker Rəsul Quliyev son günlər dağıdıcı müxalifət düşərgəsində baş verən gizli və açıq savaşlara növbəti münasibətini bildirib. Sosial şəbəkənin imkanlarından maksimum yararlanan R.Quliyev videogörüntü vasitəsilə dağıdıcı təmayüllü müxalifət liderlərinə qarşı, demək olar ki, qasırğa kimi əsib və aranı yenidən qatmağı bacarıb.***

### Sabiq spiker: "AXCP-dən ibarət olan "Milli Şura" Azərbaycanda müxalifətin olmadığını icazəli mitinqlərə çıxartdığı insanlarla sübut etdi"

Növbəti keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ərfəsi eks-spiker R.Quliyev "Milli Şura"nın, ardıcıl olaraq fiaskoyaya uğrayan mitinqindən sonra yenidən mitinq keçirmək istəyinə hiddətlənərək, "AXCP sədri Ə.Kərimli həyasızlığın son həddididir" deyərək, "Milli Şura"nın sədrini saxtakar və satqın adlandırıb: "Varlığı ilə yoxluqları yalnız bir neçə qəzet və internet səhifələrində bilinən Ə.Kərimli-C.Həsənli kimilərin qanı da düz yolla axmır: "Bələləri məğlubiyyətin səbəbini "hökümət seçkiləri saxtalaşdırdı" deyib özlərinə təsəlli verirlər. Bu "bədbaxtlar" bilməlidirlər ki, heç yüz ildən sonra da qələbə çalmaq şansları yoxdur. Bu gün bu insanların "siyasət" meydanına yapışıb qopmamaları xalqın gələcəyinin üzərindən hökumətlə müqayisədə daha qalın xətt çəkir".



R.Quliyev, həmçinin, seçkiərəfəsi C.Həsənlinin ABŞ-ın "xüsusi" dəvəti ilə tez-tez səfər etməsinə də münasibət bildirib: "C.Həsənlini dili ilə birlikdə soymaq lazımdır. Nə qədər yalan olar? Bu nə xüsusi dəvətdir, hansı dövlət təşkilatı və hansı məqsədlə göndərib bu dəvəti? Abırsızlıq etmə, Cəmil. Primitiv ideyalarını bu yazıq millətə yedirtmə".

R.Quliyev əlavə edib ki, nə ölkə daxilində, nə də xaricdə bu hakimiyyətə alternativ qüvvə heç mikroskopla belə görünmür: "25 ildir ki, seçki oyunbazlıqları ilə məşğulsunuz. Ə.Kərimli ilə İ.Qəmbər, "mənəm-mənəm" prinsipi əsasında "ana müxalifət" partiyası olduqlarınızı zorla ictimai rəyə sırımağa çalışsanız da, təsis etdiyiniz qondarma "Milli Şura" adlı ölü qurumun nə prezident, nə də parlament seçkilərində heç kimə lazım olmayan tullantı olduğunu gördünüz. Ötən şənbə "Milli Şura"nın keçirdiyi azsaylı rüsvayçı mitinq və orada "liderlər"in səsləndirdikləri fikirlər normal düşüncəli insanların hər birində istehza doğurmuş oldu. İndi yenidən mitinq keçirmək istəyi, bir daha Ə.Kərimli və C.Həsənli kimilərin həyasızlığının son həddidir".

Beləliklə, R.Quliyev dağıdıcı düşərgədə qasırğa qoparmaqla, onlara öz siqnallarını ötürməyi bacarıb.

### Rəsul Quliyev: "İsa Qəmbərin, Əli Kərimlinin, Cəmil Həsənlinin liderliklərinə şübhəm var"

Daha bir maraqlı nüanslardan biri də R.Quliyevin "Milli Şura" və AXCP ilə yanaşı, ənənəvi düşərgədəki digər müxalifət partiyalarının da bostanlarına daş atmasıdır. Məsələn, zamanında "Milli Şura"da olan , hazırda isə başqa cinaha keçərək, "Antiböhran Koalisiyası" şəklində fəaliyyət göstərən siyasi təşkilatların boş işlərlə məşğul olduğunu iddia edən sabiq spiker qarşı tərəfin səylərinin heç bir nəticə verə bilməyəcəyini vurğulayıb. Üstəlik, özlərini lider elan edənlərin də liderliklərinə böyük şübhə ilə yanaşdığını bildirib: "Vaxtilə "Milli Şura"ya daxil olan onlarla qurum böhranla bağlı "Antiböhran Koalisiyası" yaradıb. "Milli Şura" və parçalanmış AXCP hansı haqla bu qurumlardan güclü olduğunu deyir? Bunu hansı əsasla deyirsiniz? İ.Qəmbər, Ə.Kərimli və C.Həsənli real vəziyyətdə özlərini lider kimi göstərməyiblər. Hətta onlarla birlikdə olduğumuz 2005-2013-cü illərdə onların atdıqları addımlar uğurlarımızı tar-mar etdi..."

Buradan da, görünür ki, R.Quliyev vaxtilə onlarla birgə olduğuna, eləcə də, onlara inandığına görə, hazırda peşmançılıq çəkir. Çünki ona verilən vədlərin heç biri yerinə yetirilməmiş qalmaqla yanaşı, ölkəyə qayıdışı üçün xərclədiyi on minlərlə dollar pulları da, məhz radikal müxalifət liderləri tərəfindən yeyildi. İndi nə faydası? Necə deyərlər, sonrakı peşmançılıq fayda verməz.

***Rəfiqə HÜSEYNOVA***

# XX əsrin 40-cı illərindən sonra Azərbaycanda mədəni-ədəbi proseslərin inkişafı

II Dünya müharibəsindən sonra Azərbaycanda mədəni-maarif sahəsində xeyli irəliləyiş baş verdi:

- minlərlə yeni kitabxana;
- klub müəssisələri;
- kütləvi kitabxanalar;
- mədəniyyət evləri yaradıldı.

Azərbaycanda maddi-mədəniyyət abidələrinin saxlandığı muzeylərin sayı artdı. Tədqiqatçı Tahir Qaffarov bu münasibətlə yazır: "1945-1990-cı illərdə respublikada muzeylərin sayı 9 dəfə çoxalıb, 125-ə çatmışdı. 1945-ci ildə Bakıda Nizami Muzeyi (sonralar Azərbaycan Ədəbiyyatı Muzeyi), 1955-ci ildə Moskvadakı Mərkəzi Lenin Muzeyinin Bakı Filialı, 1959-cu ildə Xızıda C.Cabbarlının, Şuşada Üzeyr Hacıbəyovun ev- muzevləri, 1964-cü ildə Bakida "Qrz Qalası" Muzeyi, 1972-ci ildə Azərbaycan Xalçası və Tətbiqi Sənət Muzeyi, Sergey Yeseninin Xatirə Muzeyi, 1975-ci ildə Bakıda Ü.Hacıbəyovun və S.Vurğunun, 1981-ci ildə Naxçıvanda H.Cavidin, 1982-ci ildə Bakıda C.Cabbarlının, Bülbülün ev-muzeyləri, onlarla yeni tarix-diyarşünaslıq muzeyləri təşkil olunmuşdu. Azərbaycan Tarixi Muzeyinin fondları getdikcə zənginləşir və ekspozisiyası daim təzələnirdi. 1945-cı ildə Bakıda Zoologiya Parkı-Elm-Maarif müəssisəsi, 70-ci illərdə Zoologiya və Arxeologiya muzeyləri (müvafiq institutların yanında) yaradılrmşdı. 1974-cü ildə Bakıda İçərişəhər məhəllələrinin regenerasiyası - bərpası üçün metodik göstəriş qəbul edildi. 1977-ci ildə İçərişəhər Dövlət Memarlıq Qoruğu elan olundu. Bərpaçı İstehsalat Birliyi yaradıldı".

Sovet ideologiyası mütəmadi olaraq, yeni "sosialist bayramları" keçirdi və bununla da milli ənənələrdən uzaqlaşmaq yolu tutdu:

- Sovet dövlət və partiya rəhbərlərinin yubileylərinin;
- "Oktyabr", "1 May" bayramlarının keçirilməsi adi hal aldı;
- 1964-cü ildə Azərbaycanın Rusiya tərəfindən işğalının "könüllü birləşdirmə" adı ilə 150 illiyi təntənəli surətdə qeyd edildi;
- Azərbaycanın müstəqilliyinə son qoymuş işğalçı XI Sovet rus ordusunun hərbi dövlət çevrilişi etdiyi gün 28 aprel "İnqilab Günü" kimi bayram olunurdu. Beləliklə, yeni Sovet bayramları əsrlərlə yaranmış milli adət-ənənələrin unudulmasına, təhrif olunmasına xidmət edirdi. T.Qaffarov yazır: "Kommunist Partiyası şüurları iflic etmək üçün ehkamçı və cəfəng şüarlardan geniş istifadə edirdi. Sov.İKP XXI qurultayı (1959-cu il) SSRİ-də sosializmin tam və qəti qələbə çaldığını, 1970-ci ilədək ölkədə adambaşına məhsul istehsalının inkişaf etmiş kapitalist ölkələrindəki səviyyəyə çatdırılacağını və onları arxada qoyacağını, Sov.İKP XXII qurultayr (1961-ci il) Sovet adamları indiki nəslinin kommunizmdə yaşayacağını elan etmişdi. 60-cı illərdə "geniş kommunizm qüruculuğu", 70-ci illərdə "inkişaf etmiş sosializm cəmiyyəti" haqqında uydurmalar da ideoloji təzyiqin əsas ehkamları idi. Adamlarda mövcud sistemin "qələbələrə aparan üstünlükləri" haqqında yəqinlik yaratmaq üçün irəliləyişlər şişirdilir və qüsurlar kiçildilirdi.

Şəhər və kəndlərə, küçə və meydanlara, müəssisələrə rəhbərlərin, inqilabçı bolşeviklərin adlarının verilməsi də mühüm ideoloji məqsəd daşıyırdı. Yaşayış məntəqələrinin ən görkəmli yerlərində Leninə, Stalinə (50-ci illərin ortalarına qədər) və başqa inqilabçılara onlarla abidə qoyulmuşdu. Leninə Bakıda (1955-ci il, C.Qaryağdı) və Sumqayıtda (1957-ci il, Ö.Eldarov və T.Məmmədov), M.Əzizbəyova (1977-ci il, T.Məmmədov), XI orduya (1980-ci il, T.Məmmədov), habelə, Dzerjinskiyə, Caparidzeyə, Fialetova əzəmətli heykəllər, 26 Bakı komissarlarına (1958-ci ildə qorelef və 1968-ci ildə xatirə ansamblı) abidələr ucaldılmışdı.

Mədəni-maarif işi eyni zamanda SSRİ xalqlarına bir-birinin ədəbiyyat və incəsənəti ilə yaxından tanış olmağa imkanlar açırdı. l947-ci ildə SSRİ-də böyük Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyi geniş qeyd olundu. 1950, 1959-cu illərdə Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ongünlüklən böyük müvəffəqiyyətlə keçirildi".

XX əsrin 70-ci illərində Azərbaycanın görkəmli yaradıcı sənətkarlarının

- SSRİ miqyasında,
- Xüsusən Moskva, Leninqrad, şəhərlərində yubileyləri keçirilir, onların əsərləri təbliğ edilir və tanıdılırdı.

Bu illərdə aşağıdakı tədbirlər keçirilirdi:

"Azərbaycanda Rusiya Ədəbiyyatı və İncəsənəti (1972), Sovet Ədəbiyyatı (1975). Ukrayna və Özbəkistan (1979), Leninqrad (1987) Ədəbiyyatı və İncəsənəti günləri təşkil olunmuşdu.

Vaxtaşırı Zaqafqaziya Xalqlarının Musiqi Festivalı keçirilirdi. 1988, 1989 və 1991-ci illərdə Azərbaycanda "Xarı bülbül" Ümumittifaq Muğam Festivalı təşkil olunmuşdu.

Tez-tez keçirilən kino, teatr festivalları, baxışlar və idman yarışları da xalqların bir-birinə yaxınlaşması, mədəni səviyyəsinin yüksəlməsi işinə əhəmiyyətli təsir göstərirdi. Rəşid Behbudov, Zeynəb Xanlarova, Elmira Rəhimova, Müslüm Maqomayev (nəvə) və başqalarının tez-tez xarici ölkələrdə qostrolları Azərbaycan musiqisinin və ifaçılıq sənəti nailiyyətlərinin geniş təbliğinə kömək edirdi".

Kommunist rejimi milli-mənəvi dəyərləri, dini sıxışdırılır və ateizmi gerçəkləşdirirdi. S.Xəlilov kommunist ideologiyasının "sosial-iqtisadi və siyasi-hüquqi müstəvidə özgələşərək, ictimai reallığa çevrilə bilmədiyini" göstərir. Çünki bu ideologiya "insanların həqiqi istək və arzuları ilə, obyektiv inkişaf qanunauyğunluqları ilə ziddiyyət təşkil edirdi. Nəzəri model gerçək həyatda özünü doğrultmadığından onu yaşatmaq üçün icbari metodlara əl atmaq lazım gəlirdi".

T.Qaffarov ilə Sovet cəmiyyətində baş verən prosesləri belə izah edirdi: "Həyat şəraiti ağırlaşdıqca, ədalətsizlik artdıqca, kommunizm cəmiyyəti qurulacağı utopiyasına inam azaldıqca, dinin kökləri dərinləşirdi. Din açıqca sıxışdırıldığından əhalinin çoxu ona gizlində inanırdı və mənəvi haçalanma baş vermişdir. 40-cı illərdə respublikada cəmi 17 məscid və 70 nəfərə qədər, əsasən, az savadlı və yaşlı din xadimləri vardı. Bu, təhsil, mədəni səviyyəsi, bilik dairəsi xeyli artmış dindarların tələbatını ödəyə bilmirdi. Xüsusi səylərə baxmayaraq, ideoloji aparatın ateist təbliğatı səmərə vermirdi. Xalq milli ənənələrini qoruyub-saxlamağa çalışırdı. Dini bayram və mərasimlər yarım-leqal şəkildə qeyd olunurdu. Respublikadakı yüzdən çox müqəddəs pir və ocaqdan 25-i, o cümlədən, "Mirmövsüm Ağa" "Əli ayağı" (Bakı), "Babaratma" (Şəki), "Asəfkəf', "İmamzadə" (Babək), "Soltan xalac" (Quba) və başqaları bütün maneələrə baxmayaraq, əsasən, yaşlı və xəstə adamlar tərəfindən fəal ziyarət olunurdu".

II Dünya müharibəsindən sonra vətənpərvərlik, faşizmə qarşı nifrət təbliğ edən Azərbaycan ədəbiyyatı yeni əsrlərlə dövrə uyğun ideyaları təsvir və tərənnüm edirdi. Bu dövrdə İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı", "Xurşudbanu Natəvan", "Şeyx Məhəmməd Xiyabani", Elçinin "Mahmud və Məryəm", C.Hüseynovun "Fətəli fəthi" kimi əsərləri, Ə.Cəfərzadənin, M.İsmayılovun, C.Bərgüşadın və başqalarının tarixi romanları bu baxımdan mühüm rol oynayırdı. Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması gizli şəkildə yayılır, əldən-ələ gəzirdi. Şair 1967-ci ildə iqtidarın Azərbaycan dilinə ögey münasibətinə qarşı üsyan edərək "Latın dili" şeirində yazırdı. Getdikcə açıq-aşkar dərinləşən ictimai-sosial ədalətsizliyin ifşası üçün yaradıcı ziyalılar rəmzlərdən, alleqoriyalardan, eyhamlardan, başqa xalqların və tarixi dövrlərin mövzularından geniş istifadə edirdilər. Rəsul Rzanın rənglər silsiləsi, bu baxımdan, çox səciyyəvi idi. Xəlil Rza təqiblərə məruz qalsa da, sözünü cəsarətlə açıq deyirdi. T.Qaffarov bu dövrdə Azərbaycan ədəbiyyatının bütün janrlarının mübarizlik və vətəndaşlıq təbliğ etdiyini göstərir: "Xalqın zəngin qaynaqları olan mənəvi aləmi öz poetik əksini Əliağa Vahidin, Rəsul Rzanın, Osman Sarıvəllinin, Bəxtiyar Vahabzadənin, Mirvarid Dilbazinin, Nəbi Xəzrinin, Məmməd Arazın, Xəlil Rzanın, Hüseyn Arifin, Musa Yaqubun, Nəriman Həsənzadənin, aşıq Mikayıl Azaflının və başqalarının əsərlərində ustalıqla tapmışdı. Bəxtiyar Vahabzadənin yaratdığı psixoloji konflikti öz təbii inkişafında açan kəskin, lakin səmimi fəlsəfi poeziyası xalqa olduqca yaxın idi. Yazıçı Maqsud İbrahimbəyovun əsərləri Azərbaycan kino-dramaturgiyası ənənələrini novatorluqla inkişaf etdirirdi.

Vahidin qəzəlləri geniş yayılmışdı. Dövrün qüsurları şifahi xalq ədəbiyyatının meyxana janrında, əsasən, Bakı kəndlərində özünəməxsus şəkildə tənqid olunurdu.

1962-ci ildən başlayaraq, hər ilin may ayında M.Ə.Sabir poeziyası günləri keçirilməsi ənənəsi yaranmışdı. Siyasi lətifələr, xüsusən, SSRİ dövlət başçıları haqqında geniş yayılmışdı.

Milli şüurun oyanmasında Cənub mövzusunda əsərlərin xüsusi əhəmiyyəti vardı. Hələ 1945-ci ilin oktyabr ayında Bakıda "Azərbaycan və İran Mədəni Əlaqələr Cəmiyyəti" təşkil olunmuşdu. (Sonralar bu cəmiyyət "Azərbaycanın Xarici Ölkələrlə Dostluq Cəmiyyətinə" çevrildi). Bu cəmiyyətin "Azərbaycan" adlı jurnalı çap olunur və Cənubda, sonralar dünyanın bütün ölkələrində yayılırdı. Azərbaycanın böyük şairi Seyid Məhəmməd Hüseyn Şəhriyarın 1954-cü ildə yazdığı "Heydərbaba salam" poeması bütün respublikada geniş əks-səda doğurmuşdu. Süleyman Rüstəmin Cənub mövzusunda yazdığı silsilə şeirlər böyük poetik və siyasi təsir gücünə malik idi.

M.İbrahimovun "Gələcək gün", "Pərvanə", P.Makulunun "Səttarxan" romanları maraqla qarşılanmışdı. Balaş Azəroğlunun, Əli Tudənin, Söhrab Tahirin, Mədinə Gülgünün, Hökumə Büllurinin əsərlərində parçalanmış vətən, ayrılıq və həsrət mövzuları əsas yer tuturdu.

Dünya ədəbiyyatının, o cümlədən, rus klassiklərinin və müasir yazıçıların əsərləri Azərbaycan dilinə tərcümə edilir və geniş yayılırdı. Xaricdə yaşayan azərbaycanlı yazıçıların yaradıcılığı da Azərbaycan ədəbiyyatının zənginləşməsinə töhfə idi. Ümülbanu Mirzə qızı (Banin) 1945-ci ildə Parisdə çap olunmuş "Qafqaz günləri" romanı ilə tanınmış yazıçıya çevrilmişdi. Onun sonrakı illərdə nəşr edilmiş "Paris günləri", "Sonra", "Yad Fransa", "Son ümidin harayı" və b. əsərləri də maraqla qarşılanmışdı".

**_Vahid ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

## Almaniyada poçt bağlamalarını robot-poçtalyonlar çatdıracaq



Bad-Hersfeld şəhərinin meri eksperimental infrastruktur layihəsinə yaşıl işıq yandırıb. Yaxın altı həftə ərzində DHL çatdırma xidmətinin poçtalyon və əməkdaşları robotlarla birgə işləməyə başlayacaq. Avtonom işləyən maşınlar şəhərin küçələrində sərbəst hərəkət edərək bağlamaları çatdıracaq.

AZƏRTAC "techcult.ru" saytına istinadla xəbər verir ki, DHL şirkəti innovasiya və cəsarətli qərarlara meyil göstərir. Bu ilin payızında şirkət avtonom maşınlar parkının yaradılmasına start verilib və ilk olaraq "PostBOT" və "Parcelcopter" robotları hazırlanıb. Onların biri uçur, digəri yerdə hərəkət edir.

"PostBOT" dronu 150 kiloqram yükqaldırma qabiliyyətinə malikdir və ərazi üzrə istiqamətlənmə sistemi ilə təchiz edilib: robot ilk dəfə poçtalyonun ayaqlarına baxaraq marşrutu izləyir, bundan sonra həmin yolu sərbəst gedə bilir. Hündürlüyü 150 santimetr olan robotun sürəti saatda 6 kilometrdir. Onun əsas vəzifəsi poçt bağlamasını göstərilən koordinatlar üzrə çatdırmaqdır.

## Amerikalı jurnalist Leonardo da Vinçinin sirrini açdı!

Amerikalı jurnalist Uolter Ayzekson Leonardo da Vinçinin həyatına həsr etdiyi əsərində dahi rəssamın "Dünyanın xilaskarı" rəsmində Məsihin əlində tutduğu şəffaf kürənin təyinatını tapıb. "The Guardian" qəzeti xəbər verir ki, "Dünyanın xilaskarı" rəsmi da Vinçinin şəxsi kolleksiyada saxlanılan yeganə əsəridir. Noyabr ayında rəsm "Christie's" satış evində hərraca çıxarılacaq. Onun qiyməti 100 milyon dollardan başlayacaq ki, bu da onu rəssamın ən bahalı əsəri edəcək.

"Kürə və ya obyektiv şəklində olan sərt şüşə və ya kristal böyüdülən, tərsə çevrilən və əks görüntü yaradır. Lakin bunun yerinə Leonardo da Vinçi kürəni daxilindən keçən işıq şüasını sındırmayan və təhrif etməyən içiboş şüşə şar kimi təsvir edib", - deyə Ayzekson yazıb.

Onun sözlərinə görə, əgər da Vinçi şüşənin əmələ gətirdiyi təhrifləri dəqiq təsvir etsəydi, əlin kürənin arxa hissəsində görünən hissəsi kiçildilmiş və ya böyüdülmüş görünəcəkdi. Jurnalistin fikrincə bu, çox qəribə səslənir, çünki rəssam "optika və işıq şüası sahəsinə həddən artıq maraq göstərib".

"Ola bilsin da Vinçi bu şəkildə Məsihə və onun kürəsinə möcüzəli xüsusiyyətlər verməyə çalışıb", - deyə Ayzekson düşünür. Uzun illər hesab olunurdu ki, bu rəsm əsəri dahi rəssamın şagirdlərinin biri tərəfindən çəkilib. Lakin 2013-cü ildə aparılan analiz əsərin da Vinçiyə məxsus olduğunu sübut edib.

## Gündə bir armud yemək arıqlamağa kömək edir



ABŞ-ın Luiziana Universitetinin alimləri armudun arıqlamağa kömək etdiyini sübut ediblər. "Lentnews.ru" saytı xəbər verir ki, aparılan araşdırmalar zamanı arıqlamaq niyyətində olan tədqiqat iştirakçıları iki qrupa ayrılıblar. Hər iki qrup üçün eyni qida rasionu tərtib edilsə də, qruplardan birinin iştirakçılarına hər gün əlavə olaraq bir armud verilib. Üç həftə sonra qida rasionunda armud olanların çəkisinin əhəmiyyətli dərəcədə azaldığı müşahidə edilib.Alimlər arıqlamanın səbəbini onunla izah edirlər ki, armudun tərkibində fruktozanın miqdarı çox olduğu üçün bu meyvəni yeyənlər əlavə şirniyyatdan imtina ediblər.

**ELAN**

**Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat uçotu və audit ixtisasının IV kurs tələbəsi Şükürzadə Fuad Zakir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## İspaniyanın "Mundo Deportivo" portalı "Qarabağ"la bağlı yol verdiyi səhvi düzəltdi


URBANIAN

De hecho, los hombres del Cholo volvieron a pinchar anoche frente al Qarabag FC azerbaiyano, un rival que sobre el papel parecía bastante asequible. Los rojiblancos no consiguieron marcar ni un solo gol y sellaron el segundo empate en Europa, un resultado que cabreó a muchos de sus seguidores.

Pero el marcador final no fue lo que más indignó a los aficionados atléticos, porque durante el partido se produjo otro detalle que les enfureció aún más. Concretamente, **la actitud de Yannick Carrasco cuando fue sustituido**.

◂Anterior Siguiente▸

İspaniyanın "Mudno Deportivo" portalı "Atletiko Madrid" klubunun oyunçusu Yannik Korasko haqqında yaydığı məqalədə İspaniya klubunun "erməni "Qarabağ"ına qarşı" oynamasını yazaraq səhvə yol vermişdi.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfirliyinin operativ müdaxiləsi nəticəsində bu səhv aradan qaldırılıb. Məqalədəki ifadə "Azərbaycan "Qarabağ"ı" ilə əvəzlənib.

Xatırladaq ki, son günlərdə İspaniya mətbuatında Azərbaycan, "Qarabağ" klubu, Ağdam haqqında çox sayda məqalə və məlumat dərc olunub. "Marca", "AS", "ABC" və digər media qurumları kimi "Mundo Deportivo" portalı da bu mövzuda bir neçə məqalə dərc edib. Həmin məqalələrdə Azərbaycanın iqtisadi inkişafından, Bakının müasirliyindən, "Qarabağ" klubunun vətəni olan Ağdam şəhərinin müharibə nəticəsində işğal olunub dağıdılmasından söz açılıb və "Qarabağ"ın Azərbaycan çempionu olması qeyd edilib.

## "Qarabağ" klubu UEFA-nın reytinq cədvəlində irəliləyib




**UEFA** futbol üzrə Çempionlar Liqasının qrup mərhələsinin üçüncü turunun oyunlarından sonra klubların yeni reytinq cədvəlini açıqlayıb. AZƏRTAC xəbər verir ki, üçüncü turun oyunları çərçivəsində Bakı Olimpiya Stadionunda "Atletiko Madrid" ilə matçda heç-heçə edən "Qarabağ" mövqeyini yaxşılaşdırıb. Belə ki, hesabında 23,275 xal olan "Qarabağ" 78-ci pilləyə yüksəlib. Azərbaycanın digər klublarına gəlincə, "Qəbələ" 157-ci, "Neftçi" 189-cu, "İnter" isə 216-cı pillədə qərarlaşıblar.

## Bakıda FIFA-nın sammiti keçiriləcək

Noyabrın 21-də Bakıda FIFA-nın İcraedici Futbol Sammiti keçiriləcək. AFFA-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə FIFA-nın rəhbər şəxslərinin, İcraiyyə Komitəsinin üzvlərinin və FIFA üzvü olan bir sıra milli assosiasiyaların rəhbərlərinin iştirakı nəzərdə tutulub.

## Braziliya məhkəməsi Neymarı 1 milyon dollar cərimələdi



Braziliya məhkəməsi PSJ-nin hücumçusu Neymarı cərimələyib. Bir sıra xarici mətbuat orqanlarının yazdığına görə, braziliyalı forvard vergidən yayındığı üçün belə addım atılıb. O, 1,2 milyon dollar həcmində cərimə olunub. Bu cərimə təkcə futbolçuya deyil, onun valideynlərinə, eləcə də Neymarla əlaqəsi olan 3 şirkətə aiddir.

## Aryen Robben "Bavariya"ya lazım olmadı

"Bavariya"nın futbolçusu Aryen Robben komandadan ayrıla bilər. Bu barədə Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda "Seltik"lə oyundan (3:0) sonra Britaniya mətbuatına açıqlama verən 33 yaşlı futbolçu klubdan ona yeni müqavilə təklif olunmadığını deyib: "Yeni müqavilə üçün klubdan heç kim mənə müraciət etməyib. Ancaq mən buna görə narahat deyiləm". Qeyd edək ki, hollandiyalı futbolçunun müqaviləsi gələn ilin iyun ayında başa çatacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**